HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 09 (749) ■ 4 mart 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini yad edib

*İyirmi üç il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törədiblər.*




Fevralın 26-da səhər tezdən Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak edib.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyev abidənin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirib. Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak ediblər. Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzüblər.

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin əsir götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan edib.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət!» kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

rəsmi xronika

## İqtisadi əməkdaşlığa dair memorandum imzalanıb

Prezident İlham Əliyev martın 2-də Böyük Britaniya Baş nazirinin Azərbaycan, Qazaxıstan və Türkmənistan ölkələrində ticarət məsələləri üzrə elçisi Çarls Hendrini qəbul edib.

Britaniyalı diplomat bildirib ki, Azərbaycana səfərinin əsas məqsədi Prezident İlham Əliyevin təşəbbüsü ilə «Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi və ticarət əməkdaşlığı haqqında» Anlaşma Memorandumu imzalamaqdır.

Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya arasında təkcə enerji sektorunda deyil, iqtisadi, ticarət, investisiya və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin önəmini vurğulayıb. Prezident İlham Əliyev daha çox sayda Britaniya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsində ölkəmizin maraqlı olduğunu deyib. Dövlətimizin başçısı Çarls Hendrinin bu istiqamətdə əlaqələrimizin genişləndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirib.

## Yeni səfir etimadnaməsini təqdim edib

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 27-də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marek Tsalkanın etimadnaməsini qəbul edib.

Səfirlə söhbət edən Prezident İlham Əliyev ölkələrimiz və xalqlarımız arasında münasibətlərin qədim tarixə malik olduğunu vurğulayıb, ikitərəfli əlaqələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib. Polşa Prezidenti Bronislav Komorovski ilə Bakıda və müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli görüşlərin əhəmiyyətini vurğulayıb. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, humanitar, beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı çərçivəsində əməkdaşlığın və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu deyən Prezident İlham Əliyev Polşa şirkətlərinin ölkəmizdə, Azərbaycan şirkətlərinin isə Polşada həyata keçirilən birgə layihələrdə daha fəal iştirak etmələrinin önəmini qeyd edib.

Səfir Marek Tsalka ayrı-ayrı nümayəndə heyətlərinin tərkibində Azərbaycana müxtəlif vaxtlarda səfər etdiyini vurğulayıb. O, diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirib.

# Türkiyə-Azərbaycan əlaqələri xalqlarımız və region, eləcə də dünya üçün böyük əhəmiyyətə malikdir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

Dövlətimizin başçısı Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-Türkiyə əlaqələrinin daha da genişləndirilməsi işinə yeni təkan verəcəyinə əminliyini bildirib. Türkiyəyə dövlət səfərinin və Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının uğurla keçdiyini məmnunluqla xatırlayan Prezident İlham Əliyev səfər zamanı birgə fəaliyyətlə bağlı gələcək planların müzakirəsinin önəmini qeyd edib. Türkiyə-Azərbaycan əlaqələrinin xalqlarımız və region, eləcə də dünya üçün çox böyük əhəmiyyətə malik olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında mövcud birliyin bölgədə sabitliyin təminatçısı olduğunu da vurğulayıb.

Mövlud Çavuşoğlu Türkiyə Respublikasının xarici işlər naziri kimi ilk rəsmi səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirib. O, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarını dövlətimizin başçısına çatdırıb. Mövlud Çavuşoğlu Prezident İlham Əliyevin Türkiyəyə dövlət səfərinin və Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmini qeyd edib.

Görüşdə Bakı-Tbilisi-Qars, TANAP layihələri, hərbi-texniki əməkdaşlıq və əlaqələrimizin digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş edib.



2 Daşınmaz əmlakın alqı-satqısı zamanı verginin tətbiqi
3 Vergi ödəyiciləri qruplaşdırılır
4 Yeni investisiya layihələri
5 «Nəzarət kitabcası» ilə bağlı yeni qərar qəbul olunub

# İnsan resurslarının inkişafı prioritet vəzifələrdəndir

Vergilər Nazirliyi insan resurslarının idarə edilməsi, kadr hazırlığı və ixtisasartırma, işə qəbul prosesinin şəffaflaşdırılması, peşə etikasına əməletmə səviyyəsinin yüksəldilməsi, idarəetmə sisteminin elektronlaşdırılması, vergi orqanlarının yüksək hazırlıqlı, təşəbbüskar, innovativ yeniliklərə meyilli kadrlar hesabına komplektləşdirilməsi yolu ilə vergi inzibatçılığının daha da təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verir.

«Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı»nın icrası məqsədilə ötən il ərzində nazirlik nümayəndələrinin Sinqapur Daxili Gəlirlər Xidmətinə, Çinin Fujian əyalətinin Fujou şəhərinə səfərləri təşkil edilmiş, insan resurslarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi, yüksək ixtisaslı kadrların hazırlanması, elektron tədris sahələri ilə bağlı təcrübə mübadiləsi aparılmışdır.

2014-cü il boyunca nazirliyin bütün struktur vahidlərinin şəxsi heyətinə və rəhbər vəzifəli şəxslərinə etik davranış mövzusunda təlimlər keçilmiş, vergi orqanı əməkdaşlarının vergi ödəyiciləri və vətəndaşlarla münasibətdə etik davranış normalarını pozması ilə əlaqədar nazirliyə daxil olmuş şikayətlər, onların həlli yolları və 2015-ci ildə bu sahədə görüləcək işlərlə bağlı müzakirələr aparılmışdır.

Orta menecer (şöbə rəisi) vəzifələrinə təyin olunmaq üçün daxili müsahibə qaydaları işlənib hazırlanmış, «Dövlət vergi orqanlarında orta menecer vəzifələrinin tutulması üçün keçirilən müsahibə Qaydaları» təsdiq olunmuşdur.

Hazırda Avropa İttifaqının «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi davam edir və layihənin tərəfdaş ölkələri olan İspaniya və Fransanın bu sahədə mövcud təcrübəsi nəzərə alınmaqla 2015-ci ildə başa çatdırılması nəzərdə tutulur.

2014-cü ildə vergi orqanı əməkdaşlarının attestasiyası keçirilmiş, attestasiyada iştirak etmiş 1300 nəfər əməkdaşdan 1274 nəfəri tutduğu vəzifədə saxlanılmış, 17 nəfər 1 ildən sonra təkrar attestasiyadan keçmək şərti ilə tutduğu vəzifədə saxlanılmış, 9 nəfər tutduğu vəzifəyə uyğun hesab olunmayaraq aşağı vəzifəyə keçirilmişdir.

Vergi orqanlarında yaranmış vakant iş yerlərinin kadrlarla komplektləşdirilməsi və kadr ehtiyatının yaradılması məqsədi ilə hesabat ilində 2 müsabiqə keçirilmiş, cəmi 222 nəfər müsabiqəni uğurla başa vurmuş, onlardan 75 nəfər vakant vəzifələrə təyin edilmiş, 147 nəfər kadr ehtiyatına daxil olunmuşdur.

Müqavilə əsasında Azərbaycan Dövlət İqtisad Universitetindən, Azərbaycan Universitetindən, Maliyyə-İqtisad Kollecindən daxil olmuş müraciətlər nəzərə alınmaqla 2014-cü ildə 336 nəfər tələbənin müxtəlif vergi orqanlarında istehsalat təcrübəsi keçməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin xahişi ilə 100 nəfər könüllünün vergi orqanlarında istehsalat təcrübəsi keçmələri təşkil edilmişdir.

# Operativ nəzarət tədbirləri

2015-ci ilin fevral ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən həyata keçirilmiş tədbirlər zamanı 5375 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır. 1035 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 167 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 701 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir. 223 vergi ödəyicisi tərəfindən 591 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 231 vergi ödəyicisi tərəfindən fərqləndirmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 65 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış mallar olduğu aşkar edilmişdir.

Aşkar edilmiş nöqsanlarla bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

# Qeydiyyat qaydaları dəyişdirildi

Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlərin siyahısında vergi ödəyicilərinin elektron qeydiyyatı ayrıca qeyd etmək lazımdır. İlkin olaraq 2011-ci il iyul ayının 1-dən sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin vergi orqanlarına gəlmədən İnternet Vergi İdarəsi vasitəsilə birbaşa onlayn rejimində qeydiyyata alınmasına başlanılıb. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında», «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının qanunlarına, Mülki Məcəlləyə və İnzibati Xətalar Məcəlləsinə edilmiş müvafiq dəyişikliklərə əsasən, 2012-ci ilin fevral ayından elektron imzadan istifadə etməklə Azərbaycan Respublikasının yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərinin də e-qeydiyyatına start verilib.

İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Dövlət qeydiyyatının təşkili şöbəsinin rəisi İftixar Axundov bildirib ki, hüquqi şəxslərin e-qeydiyyatı iki üsulla: sürətli və adi qaydada həyata keçirilir: «Sürətli elektron qeydiyyat təsisçi bir nəfər olduqda tətbiq edilir. Bu halda təsisçi yalnız özü, təyin edəcəyi rəhbər və cəmiyyətin fəaliyyət sahəsi barədə məlumatı sistemə daxil edib elektron imza qoymaqla hüquqi şəxsin dövlət qeydiyyatı üçün tələb olunan məlumatları qeydiyyat orqanına təqdim etmiş olur. Təsisçilərin sayı birdən çox olduqda, habelə hüquqi şəxsə aid daha geniş məlumatların daxil edilməsi tələb olunduqda isə adi elektron qeydiyyat üsulu seçilir».

Hazırda qanunlarda yeni dəyişikliklər aparılaraq e-qeydiyyata keçidlə əlaqədar prosesin başa çatdırılması üçün vətəndaşlar tərəfindən yerinə yetirilən əməliyyatların sayı, xərclənən vəsaitin məbləği və sərf edilən vaxt minimuma endirilib. Bunun müqabilində Azərbaycanda kommersiya hüquqi şəxsin qeydiyyata alınması müddəti 3 dəfə azaldılıb.

Azərbaycan Respublikas vergilər nazirinin əmri ilə «Kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı», «Fərdi sahibkarların onlayn qeydiyyatı» inzibati reqlamentlərinə və «Fiziki şəxslərin vergi uçotuna alınması və vergi uçotundan çıxarılması qaydaları»na müvafiq dəyişikliklər edilib və 2015-ci il fevralın 20-dən qüvvəyə minib.

İ.Axundovun izahına görə, «dəyişikliklərə uyğun olaraq, MMC-nin sürətli elektron qeydiyyatı zəruri məlumatlar informasiya sisteminə daxil edildikdən sonra dərhal həyata keçiriləcək: «Yerli vətəndaşlar tərəfindən yaradılan MMC-lərin adi elektron dövlət qeydiyyatı müddəti 3 gündən 1 günə endirilib, sürətli elektron qeydiyyatı isə 1 gün əvəzinə dərhal yerinə yetirilir. Reqlamentə edilmiş dəyişikliklərə əsasən, fiziki şəxslərin onlayn qeydiyyatı zəruri məlumatları informasiya sisteminə daxil etdikdən sonra dərhal həyata keçiriləcək».

**Fəxriyyə İKRAMQIZI**




# Daşınmaz əmlakın alqı-satqısı zamanı verginin tətbiqi

*Daşınmaz əmlakın alqı-satqısı zamanı vergilərin hansı qaydalarla, dərəcələrlə tətbiq edilməsi məsələləri cəmiyyətdə və mətbuatda müzakirə olunan mövzulardandır. Məsələyə aydınlıq gətirmək məqsədilə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Şamil Ərəbova müraciət etdik.*

Mövzu ilə bağlı qəzetimizə şərh verən Ş.Ərəbov bildirdi ki, Vergi Məcəlləsinin 96.1-ci maddəsinə əsasən, rezidentlərin gəlirləri üzrə vergitutma obyekti vergi ili üçün rezidentlərin bütün gəliri ilə həmin dövr üçün Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir. Vergi Məcəlləsinin 99.2.1-ci maddəsinə görə, sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir sahibkarlıq fəaliyyətindən gəlirə aiddir. Həmçinin, Məcəllənin 99.3.6-cı maddəsinə uyğun olaraq, fiziki şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə aiddir. Vergi Məcəlləsinin 101.2-ci maddəsinə əsasən isə fiziki şəxslərin qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirinin 30000 manatadək olan hissəsindən 14 faiz, 30000 manatdan çox olduqda 4200 manat və 3000 manatdan çox olan məbləğin 25 faiz dərəcəsi ilə vergi tutulur. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən isə 20 faiz dərəcə ilə vergi tutulur.



Vergi Məcəlləsinin 102.1.9-cu maddəsində göstərilib ki, vergi ödəyicisinin azı 3 il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakının təqdim edilməsindən gəliri fiziki şəxslərin gəlir vergisindən azaddır. Bu halda, əsas yaşayış yeri dedikdə, şəxsin qeydiyyatda olduğu ünvandan asılı olmayaraq, «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən daimi və ya daha çox yaşadığı yer başa düşülür.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120.000 manatdan artıq olan şəxslər (Vergi Məcəlləsinin 218.1.1.1-ci və 218.1.1.3-cü maddələrində göstərilənlər istisna olmaqla) Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 120.000 manatdan artıq olduqda, bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs əməliyyatın aparıldığı gündək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

Vergi Məcəlləsinin 218.1-ci maddəsinə əsasən, Məcəllənin XI fəslinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 120.000 manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər. Əgər daşınmaz əmlakın alqı-satqısı zamanı da ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 120.000 manat və ondan azdırsa, həmin şəxslər sadələşdirilmiş vergi üzrə ödənişləri həyata keçirəcəklər.

Fiziki şəxs sahibkarlıq fəaliyyətində istifadə edilməyən və 3 ildən az müddətə əsas yaşayış yeri olan və ya hər hansı müddət nəzərə alınmadan əsas yaşayış yeri olmayan digər mənzilin təqdim edilməsindən əldə edilən məbləğdən onun alış qiymətini və bu yaşayış sahəsi ilə bağlı çəkilmiş müvafiq sənədlərlə təsdiq edilən xərcləri çıxdıqdan sonra qalan məbləğdən Vergi Məcəlləsinin 101.2-ci maddəsinə uyğun olaraq gəlir vergisi hesablayıb dövlət büdcəsinə ödəməlidir.

Qeyri-yaşayış sahəsi hesab olunan daşınmaz əmlak və ya sahibkarlıq fəaliyyətində istifadə edilmiş mənzil 120.000 manatdan aşağı qiymətə təqdim edildiyi halda, əldə olunan gəlir (hasilat) vergi ödəyicisinin tətbiq etdiyi vergitutma sistemino (sadələşdirilmiş və ya gəlir vergisi) uyğun olaraq müvafiq vergilərə cəlb edilir. Fiziki şəxsin digər sahibkarlıq fəaliyyətindən də gəlirləri olduğu halda, həmin gəlirlərin ümumi həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 120.000 manatdan artıq olarsa, növbəti ayın birinci günündən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınır. Qeyri-yaşayış sahəsi hesab olunan daşınmaz əmlak və ya sahibkarlıq fəaliyyətində istifadə edilmiş mənzil 120.000 manatdan artıq qiymətə təqdim edilərsə, fiziki şəxs hər iki halda alqı-satqı əməliyyatının aparıldığı tarixədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Bu zaman həmin daşınmaz əmlakların təqdim edilməsindən əldə olunan məbləğlər müvafiq olaraq ƏDV-yə və gəlir vergisinə (təsdiqedici sənədlər əsasında həmin daşınmaz əmlaklarla bağlı xərclər nəzərə alınmaqla) cəlb edilir.

**Rəşad SADIQOV**

# Azərbaycandan ixrac olunan qeyri-neft məhsullarının həcmi artır

*Dövlət Statistika Komitəsi Azərbaycanın xarici ticarət əməliyyatları ilə bağlı ötən ilin yekunlarını əks etdirən hesabat açıqlayıb. Hesabata əsasən, Azərbaycan 2014-cü ildə 150 ölkə ilə ticarət əlaqəsi həyata keçirib. 110 ölkəyə əmtəə ixrac olunub, 137 ölkədən mal idxal edilib.*

Keçən il xarici ölkələrlə 31 milyard ABŞ dolları məbləğində ticarət, o cümlədən 21,8 milyard dollarlıq ixrac, 9,2 milyard dollarlıq idxal əməliyyatları aparılıb ki, bu da 12,6 milyard dollarlıq müsbət saldo deməkdir. Ticarət əlaqələrinin 90,6%-i MDB üzvü olmayan dövlətlərlə, o cümlədən 47,3%-i Avropa İttifaqı ilə həyata keçirilib.

Hesabatda göstərilir ki, keçən il MDB-dən savayı başqa ölkələrə ixrac olunmuş malların dəyəri 0,4% artmış, MDB üzvü ölkələrinə ixrac edilmiş malların həcmi isə 38,9% azalıb. Beləliklə, ixracın 3,8%-i MDB-nin, 53%-i Avropa İttifaqı dövlətlərinin, 43,2%-i digər ölkələrin payına düşüb.

2014-cü ildə MDB üzvü olmayan dövlətlərdən Azərbaycana 7,1 milyard dollar dəyərində mal gətirilib. Ümumiyyətlə, il ərzində idxalın 22,7%-i MDB-nin, 33,8%-i Avropa İttifaqı ölkələrinin, 43,5%-i digər dövlətlərin hesabına reallaşıb.

Hesabatda Azərbaycana idxal olunan və ölkəmizdən ixrac edilən malların adları da açıqlanıb. Ötən il Azərbaycana gətirilmiş malların ümumi dəyərinin 11,6%-ni yeyinti məhsulları, 4,4%-ni tütün və tütün məmulatları, 1,2%-ni sement, 2,5%-ni əczaçılıq məhsulları, 2,6%-ni plastmas və ondan hazırlanan məmulatlar, 11,1%-ni qara metal və ondan hazırlanan məmulatlar, 28,1%-ni maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri, 9,2%-ni nəqliyyat vasitələri və onların hissələri, 1,3%-ni mebel və mebel hissələri, 26,6%-ni digər məhsullar təşkil edib. Ümumilikdə keçən il Azərbaycana 6100-dən çox çeşiddə mal gətirilib.

Onu da bildirək ki, idxal olunan bir çox məhsulların həcmində azalma müşahidə edilib. Bu isə yerli istehsalın artması hesabına mümkün olub. Məsələn, 2013-cü illə müqayisədə ötən il Azərbaycana mal ətinin idxalı 13,7%; təzə meyvənin idxalı 30,3%; çayın idxalı 8,6%; buğdanın idxalı 17,6%; sement klinkerlərin və sementin idxalı 22,7%; polietilenin idxalı 32,2%; metal çubuq və armaturların idxalı 18,7% azalıb.

İl ərzində Azərbaycandan 2150-dən çox adda mal ixrac olunub. İxrac edilən malların siyahısında neft, neft məhsulları və təbii qazdan savayı, meyvə-tərəvəz, çay, bitki və heyvan mənşəli yağlar, şəkər, spirtli və alkoqolsuz içkilər, kimya sənayesi məhsulları, plastmas və onlardan hazırlanan məmulatlar, pambıq iplik, qara metal, alüminium və s. üstünlük təşkil edir. Azərbaycandan qeyri-neft məhsullarının ixrac göstəriciləri maraq doğurur. 2013-cü illə müqayisədə keçən il xarici ölkələrə göndərilmiş məhsullardan meyvə-tərəvəzin ixracı 17%; marqarin və digər qida üçün yararlı qarışıqların ixracı 18,4%; polietilenin ixracı 33,1%; qızılın ixracı 13%; emal olunmuş alüminium ixracı 0,9%; mebelin ixracı 9,6% artıb. Ümumilikdə keçən il Azərbaycandan 1,7 milyard dollarlıq qeyri-neft məhsulları ixrac edilib.

# Vergi ödəyiciləri qruplaşdırılır



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına uyğun olaraq, Vergilər Nazirliyi tərəfindən təsdiq olunmuş «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da ölkə qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması, passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçid, vergilər üzrə güzəşt və azadolmaların səmərəliliyinin qiymətləndirilməsi, vergi bəyannamələrinin əvvəlcədən doldurulma sisteminə mərhələlərlə keçidin təmin olunması, ümumi bəyannamə sisteminə keçidlə bağlı hazırlığın görülməsi kimi tədbirlər müəyyən edilmişdir. Bu məqsədlə tətbiq edilmiş vergi ödəyicilərinin sosial-demoqrafik göstəricilərinə əsasən qruplaşdırılması ilə bağlı suallarımızı vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri Akif Musayev cavablandırmışdır.*

***- Akif müəllim, vergi ödəyicilərinin sosial-demoqrafik göstəricilərinə əsasən qruplaşdırılmasının başlıca məqsədi nədir?***

- Vergi sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən bütün tədbirlərdə dövlət, biznes və istehlakçılar arasında qarşılıqlı etibar və korporativ sosial maraqların təmin edilməsi vergi siyasətinin əsas vəzifələrindəndir. Bu vəzifənin yerinə yetirilməsi üçün ölkəmizin iqtisadi sisteminin xüsusiyyətləri, əhalinin mentaliteti, psixologiyası və sosial-iqtisadi-demoqrafik imkanlar əsas faktorlar kimi həmişə diqqət mərkəzində saxlanılır. Səmərəli maarifləndirmə və məlumatlandırma sisteminin yaradılması məqsədilə vergi ödəyicilərinin sosial-demoqrafik göstəricilərinə əsasən vergidən yayınmanın motivlərinin aşkar olunması, vergidən yayınma riskinə meyilli və risklərə neytral olan vergi ödəyicilərinin fərqləndirilməsinə və vergi ödəməkdən yayınmanın institusional xüsusiyyətlərinin müəyyənləşdirilməsinə imkan verən metodologiya hazırlanıb.

«Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»ın 8-ci bəndində vergi ödəyicilərinin vergi qanunvericiliyinə əməletmə səviyyəsinin araşdırılması və nəticədən asılı olaraq maarifləndirmə tədbirlərinin görülməsi məqsədilə vergi ödəyicilərinin sosial-demoqrafik əlamətlərinə görə qruplaşdırılması metodologiyasının hazırlanmasına dair tədbir nəzərdə tutulmuşdur. Bununla əlaqədar vergilər nazirinin 09 yanvar 2015-ci il tarixli əmri ilə «Vergi ödəyicilərinin sosial-demoqrafik göstəricilərə əsasən qruplaşdırılması metodologiyası» təsdiq edilmişdir. Əsas məqsəd vergi ödəyicilərinin ayrı-ayrı qruplarında qanunvericiliyə əməletmə səviyyəsinin müəyyən olunması üzrə araşdırmaların aparılmasından və onun nəticəsindən asılı olaraq məlumatlandırma və maarifləndirmə tədbirlərinin təşkil edilib həyata keçirilməsidir.

***- Vergi ödəyiciləri sosial-demoqrafik göstəricilərinə görə hansı qruplara bölunurlər?***

- Vergi ödəyicisi olan fiziki şəxslərin bölgüsü belə nəzərdə tutulur:

*1.Yaşa görə*: 35 yaşadək; 35 yaşdan 55 yaşadək; 55 yaş və ondan çox olanlar.

*2.Cinsə görə*: kişilər; qadınlar.

*3.Yaşadığı yerə görə*: şəhər əhalisi; kənd əhalisi.

*4.Sahibkarlıq fəaliyyəti ilə məşğul olma müddətinə görə*: 5 ilədək məşğul olanlar; 5 ildən çox və 10 ildən az məşğul olanlar; 10 il və daha çox məşğul olanlar.

Bunlarla yanaşı, metodologiyada nəzərdə tutulmuşdur ki, vergi ödəyiciləri arasında vergi qanunvericiliyinə dair maarifləndirmə işlərinin daha səmərəli keçirilməsi üçün məlumat bazasının genişləndirilməsi məqsədilə sosial sorğular əsasında, yaxud vergi orqanının müvafiq strukturunun apardığı təhlillər əsasında vergi ödəyiciləri təhsilə, ailə vəziyyətinə və s. sosial göstəricilərə görə də qruplaşdırıla bilər.

***- Qruplaşdırma hansı məlumatlara əsasən və necə aparılacaqdır?***

- Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin yaşına, cinsinə, yaşadığı yerə və sahibkarlıq fəaliyyəti ilə məşğul olma müddətinə görə qruplaşdırılması vergi orqanlarındakı məlumatlar əsasında hər təqvim ili üzrə aparılacaqdır. Bu zaman vergi ödəyicilərindən əlavə məlumatlar tələb olunmur. Vergi ödəyicilərinin qruplara bölünməsi və hər qrupda vergi qanunvericiliyinə əməletmə səviyyəsinin müəyyən edilməsi isə müvafiq proqram təminatından istifadə edilməklə AVİS vasitəsilə həyata keçiriləcəkdir.

***- Qruplaşdırılmaların aparılmasında hər hansı zaman məhdudiyyəti qoyulurmu?***

- Proses müvafiq proqram təminatı vasitəsilə avtomatlaşdırılmış şəkildə həyata keçirildiyindən qruplaşdırmanı zaman məhdudiyyəti qoyulmadan həyata keçirmək mümkün olacaqdır. Yəni zərurət yaranan istənilən vaxtda qruplaşdırma aparıla bilər.

Vergi siyasəti sahəsində yuxarıda qeyd olunan prioritetlər və müəyyənlik orta və uzunmüddətli dövrdə vergi sisteminin səmərəliliyinin artırılması ilə yanaşı, bir tərəfdən büdcənin dayanıqlığının təmin edilməsini nəzərdə tutan büdcə gəlirlərinin əldə olunmasına, digər tərəfdən isə ölkənin xarici iqtisadi inteqrasiyada vergi rəqabətliliyini təmin edən sahibkarlıq və investisiya aktivliyinə xidmət edir.

**Fəxriyyə İKRAMQIZI**

# Avtomobillərə, istirahət və ya idman üçün yaxtalara tətbiq edilən aksiz dərəcəsi dəyişdirilib

Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, bu ildən ölkəyə idxal olunan minik avtomobillərində mühərrikin həcmi 2000 sm$^3$-dək olduqda aksiz dərəcəsi mühərrikin həcminin hər sm$^3$-ə görə 0,15 manatdan 0,20 manata qədər artırılıb.

2015-ci ilədək avtomobilin sm$^3$-ə görə 1 manat aksiz dərəcəsi tətbiq olunduğu halda, bu ildən belə avtomobillər üçün 400 manat və əlavə olaraq 2001-3000 sm$^3$ hissəsi üçün hər sm$^3$-ə görə 1,5 manat aksiz dərəcəsi ödəniləcək. Bundan başqa, ötən il mühərrikin həcmi 4000 sm$^3$-dək olduqda aksiz dərəcəsi 1300 manat və əlavə olaraq 3001 - 4000 sm$^3$ hissəsi üçün hər sm$^3$-ə görə 2 manat təşkil edirdi. Bu ildən isə aksiz dərəcəsi müvafiq olaraq 1900 manat və əlavə olaraq 3001 - 4000 sm$^3$ hissəsi üçün hər sm$^3$-ə görə 4 manat müəyyənləşdirilib.

Dəyişikliklərə görə, aksiz dərəcəsi mühərrikin həcmi 5000 sm$^3$-dək olduqda 5900 manat və əlavə olaraq 4000-5000 sm$^3$ hissəsi üçün hər sm$^3$-ə görə 8 manat, mühərrikin həcmi 5000 sm$^3$-dən çox olduqda 13900 manat və əlavə olaraq 5000 sm$^3$-dən çox olan hissəsi üçün hər sm$^3$-ə görə 10 manat təşkil edəcək.

İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrdə mühərrikin həcminin hər sm$^3$-ə görə aksiz dərəcəsi 1 manatdan 3 manata qədər artırılıb.

Minik avtomobillərinin mühərrikinin həcminə mütənasib olaraq tətbiq edilən aksiz dərəcəsi cədvəldə göstərildiyi kimi hesablanacaq.

| Misal | Mühərrikin həcmi | Aksizin dərəcəsi | |
|---|---|---|---|
| | | *Dəyişiklikdən əvvəl* | *Dəyişiklikdən sonra* |
| 1. Mühərrikinin həcmi 2400 sm$^3$ olan avtomobilə görə ödəniləcək aksiz: 400 + (2400-2000) x 1,5 manat = 1000 manat<br>2. Mühərrikinin həcmi 4000 sm$^3$ olan avtomobilə görə ödəniləcək aksiz: 1900 + (4000 - 3000) x 4 manat = 5900 manat<br>3. Mühərrikinin həcmi 2000 sm$^3$ olan idman yaxtasına görə ödəniləcək aksiz: 2000 x 3 manat = 6000 manat | 2000 sm$^3$-dək olduqda | hər 1 sm$^3$ 0,15 manat | hər 1 sm$^3$-ə görə 0,2 manat |
| | 3000 sm$^3$-dək olduqda | 300 manat + 2001 sm$^3$-dən başlayaraq hər 1 sm$^3$-ə görə 1 manat | 400 manat + 2001 sm$^3$-dən başlayaraq hər 1 sm$^3$-ə görə 1,5 manat |
| | 4000 kub sm$^3$-dək olduqda | 1300 manat + 3001 sm$^3$-dən başlayaraq hər 1 sm$^3$-ə görə 2 manat | 1900 manat + 3001 sm$^3$-dən başlayaraq hər 1 sm$^3$-ə görə 4 manat |
| | 5000 kub sm$^3$-dək çox olduqda | 3300 manat + 4000 sm$^3$-dən çox hissəsi üçün hər sm$^3$-ə görə - 4 manat | 5900 manat + 4001 sm$^3$-dən çox hissəsi üçün hər sm$^3$-ə görə - 8 manat |
| | 5000 kub sm$^3$-dən çox olduqda | — | 13900 manat + 5000 sm$^3$-dən çox hissəsi üçün hər sm$^3$-ə görə - 10 manat |
| | istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr | 1 sm$^3$-ə görə 1 manat | 1 sm$^3$-ə görə 3 manat |

Minik avtomobillərinin mühərrikinin həcminə mütənasib olaraq tətbiq edilən aksiz dərəcəsi cədvəldə göstərildiyi kimi hesablanacaq.

**Rəşad SADIQOV**

# Mobil sığorta dövrü başlayır

*Fevralın 23-də Azərbaycan Sığortaçılar Assosiasiyası və Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin «Sığorta ilə bağlı proqram təminatı»nın təqdimatı olub. «Sığorta Azərbaycan» adlanan proqram təminatını Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti xidmətinin şöbə müdiri Mahir Abdullayev təqdim edib. Smartfonlar üçün internetdən köçürülməsi mümkün olan proqramda sığorta ilə bağlı müxtəlif bölmələr yerləşdirilib.*

M.Abdullayev bildirib ki, proqramda sığorta şirkətləri, sığorta məhsulları və icbari sığorta tarifləri haqda ətraflı məlumatlar, sığorta ilə bağlı mətbuatda dərc edilən informasiyalar yer alıb: «Proqram qanunvericilik, sual-cavab bölmələrini və digər faydalı materialları əhatə edir. Bu mobil proqram vasitəsilə sığorta şirkətlərindən nazirliyə şikayət ünvanlamaq, eləcə də sığorta müqavilələrini yoxlamaq, sığorta hadisələri barədə məlumat vermək mümkün olacaq. Yeni proqram sığortalı şəxslərə irəli sürdükləri tələblərə dair prosesi izləmək imkanı yaradacaq. Sığorta hadisəsi baş verdikdən sonra sığorta şirkətinə müraciət edən şəxsə onun tələbinin qeydə alınması, araşdırılması, ödənişin təyin olunub-olunmaması, sığorta ödənişinin nə vaxt və harada veriləcəyi ilə bağlı SMS vasitəsilə məlumat veriləcək. Bunun üçün sığorta tələbinin qeydə alındığı nömrənin SMS-lə İcbari Sığorta Bürosuna göndərilməsi kiyafət edəcək. Sığortalılara məlumatı elektron poçt vasitəsi ilə əldə etmək imkanı da yaradılacaq».

Şöbə müdiri qeyd edib ki, yeni proqram təminatı sığorta şirkətləri və sığorta hadisələri ilə bağlı araşdırma aparmağa, tələblərin necə, hansı müddətdə yerinə yetirildiyini təhlil etməyə, çevik və ləng işləyən şirkətləri müəyyənləşdirməyə də imkan verəcək. Mobil tətbiq iOS və Android əməliyyat sistemi ilə işləyən smartfonlar üçün nəzərdə tutulub

**FƏXRİYYƏ**

# Müəllimlər üçün təlim təşkil edilib

Orta məktəblərdə vergilər mövzusunda məşğələlər aparan müəllimlərə metodiki kömək üçün Bakı şəhərindəki 46 və 225 nömrəli tam orta məktəblərdə metodiki kabinetlər, 4 və 18 nömrəli peşə liseylərində isə vergi tədris otaqları yaradılmış, müvafiq avadanlıq və tədris vasitələri ilə təchiz edilmişdir. Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin (BVD) əməkdaşları orta məktəblərdə bu sahədə fəaliyyət göstərən müəllimlərlə müntəzəm görüşlər keçirir, fikir mübadiləsi aparırır, onlara zəruri yardımlar göstərirlər.



Fevralın 27-də BVD-nin Vergi ödəyicilərinə xidmət və uçot idarəsi tərəfindən Bakı şəhərindəki 225 nömrəli tam orta məktəbdə fəaliyyət göstərən «Vergilər tədris-metodiki kabineti»ndə Yasamal rayonunun orta məktəblərində vergilər mövzusunu tədris edən müəllimlərə metodiki köməkcməqsədilə növbətictəlim təşkil edilmişdir. İdarənin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəis müavini, 1-ci dərəcəli müfəttiş Nəbi Xəlilov və şöbənin Məlumatlandırma və vergi təbliğatı bölməsinin rəisi, vergi xidməti müşaviri Məhərrəm Əmiraslanov tədbir iştrakçılarına orta məktəblərdə vergilər mövzusunun tədrisi ilə bağlı nazirlik tərəfindən görülən işlər, vergi anlayışı, vergilərin tarixi və əhəmiyyəti, Azərbaycanda tədbiq edilən vergilər, Vergi Məcəlləsində edilmiş dəyişikliklərcbarədəcməlumatcvermişlər.

Vergilər Nazirliyi tərəfindən hazırlanmış tədris proqramlarına və dərs vəsaitlərinə uyğun olaraq ayrı-ayrı mövzuların tədrisi ilə bağlı müvafiq metodiki tövsiyələr verilmiş, «açıq dərslərin» və digər tədbirlərin keçirilməsinə kömək göstərilməsi üçün qarşılıqlı əlaqələrin qurulmasının vacibliyi qeyd olunmuşdur.

17 məktəbi təmsil edən 26 nümayəndənin iştirakcetdiyi təlimdə 225 nömrəli tam orta məktəbin direktoru Sevda Eminova vergi orqanları tərəfindən mütəmadi keçirilən belə tədbirlərin vergilərə aid anlayışların gənc nəslin, ümumilikdə cəmiyyətin vergilər barədə məlumatlandırılmasında əhəmiyyətini yüksək qiymətləndirmişdir.

# Bələdiyyələr yeni dəyişikliklərlə bağlı məlumatlandırılıb

*8 saylı Ərazi Vergilər İdarəsinə daxil olan İmişli rayon bələdiyyələrinin iştirakı ilə Vergilər Nazirliyi tərəfindən bələdiyyə vergi və ödənişlərin hesablanmasını təmin edən yeni metodiki vəsaitlərin təqdimatına həsr olunmuş görüş keçirilib.*

Qeyd edilib ki, vəsait bələdiyyə vergilərinin ödəyiciləri olan fiziki şəxslərin, onların əmlakının (torpağının) və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması, şəxslərin əmlak və torpaq vergisinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisinin və yerli ödənişlərin hesablanması, ödənilməsi və uçota alınması qaydalarını özündə əks etdirir.

«Bələdiyyələrin statusu haqqında» Qanunda torpaq və əmlak vergiləri ilə bağlı edilmiş dəyişikliklərə əsasən, 2015-ci ildən fiziki şəxslərdən əmlak vergisinin əmlakın hər kvadratmetrinə uyğun hesablanaraq ödənilməsi nəzərdə tutlulub. Yeni qaydalara görə, əmlakın, o cümlədən fiziki şəxsin yaşayış və qeyri-yaşayış sahəsinin 30 kvadratmetrinədək olan hissəsi ümumiyyətlə vergiyə cəlb olunmayacaq, həmin sahədən çox olan hissəsinin hər kvadratmetrinə görə regionlardan asılı olaraq diferensiallaşma aparılmaqla vergi hesablanır. Həmçinin, 2015-ci ildən yerli vergi və ödənişlərin nağd şəkildə ödənilməsi qanunla qadağan olunub.

Görüşdə 8 saylı ƏVİ-nin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Mahir Qarayev və şöbənin müfəttişi Qadir Rəsulov bələdiyyə nümayəndələrini maraqlandıran sualları cavablandırıblar.

# Azərbaycan-Çexiya biznes forumu

*Çexiya Respublikasının sənaye və ticarət naziri Yan Mladekin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Bakıda Azərbaycan-Çexiya biznes forumu təşkil olunub.*

Hər iki tərəfdən 150-dən çox iş adamının iştirak etdiyi tədbirdə sənaye, bankçılıq, İKT, turizm, kənd təsərrüfatı, logistika, konsaltinq, tikinti, mühəndislik, maşınqayırma sahələri əhatə olunub. İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev Azərbaycan-Çexiya iqtisadi əlaqələrinin inkişaf etdiyini vurğulayıb, əməkdaşlıq üçün böyük potensialın olduğunu deyib.

Yan Mladek Azərbaycan iqtisadiyyatının inkişafından məmnun olduğunu bildirib, çex şirkətlərinin də burada uğurla fəaliyyət göstərdiyini deyib.

Qeyd edilib ki, iş adamları arasında keçirilən görüşlər, biznes forumları ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafına, eləcə də yeni əlaqələrin qurulmasına mühüm töhfə verir.

Biznes forumu iş adamları arasında əməkdaşlıq imkanlarının müzakirəsi ilə davam etdirilib.

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Məsuliyyətə cəlbolunma müddəti

***Vergi qanunvericiliyinin pozulmasına görə hansı müddət ərzində məsuliyyətə cəlb oluna bilərəm? Qanun pozuntusundan sonra məsuliyyətdən azadolunma müddəti necə müəyyən olunur?***

Vergi Məcəlləsinin (VM) 53.1-ci maddəsinə əsasən, vergi ödəyiciləri, habelə vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə VM, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (İXM), Cinayət Məcəlləsi (CM) və digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə və vergi agentlərinə VM ilə müəyyən edilmiş maliyyə sanksiyaları və faizlər tətbiq edilir. VM-in 56.1-ci maddəsinə əsasən, vergi qanunvericiliyinin pozulması anından 3 il keçmişdirsə, şəxs həmin qanunvericiliklə bağlı hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi ödəmələri yarana bilməz.

İXM-in 36.1-ci maddəsinə əsasən, inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci iki ay keçənədək verilə bilər. Gömrük, ətraf mühitin qorunması, qrant müqavilələrinin (qərarlarının) qeydə alınması, eləcə də maliyyə, vergilərin və rüsumların ödənilməsi qaydaları əleyhinə olan inzibati xətalara görə, habelə hüquqi şəxslərin dövlət reyestri üçün zəruri məlumatların verilməməsinə, qeyri-hökumət təşkilatları haqqında və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulmasına görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin «Azərbaycan Respublikası Vergi Məcəlləsinin 56.1-ci maddəsinin və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 75 və 213-cü maddələrinin şərh edilməsinə dair» 8 aprel 2002-ci il tarixli qərarında qeyd edilir ki, vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusuna görə məsuliyyətə cəlbetmə haqqında VM-in 56.1-ci maddəsində müəyyənləşdirilən 3 illik müddət yalnız 57-60-cı maddələrdə nəzərdə tutulmuş vergi qanunvericiliyinin pozulması halları ilə əlaqədar tətbiq olunmalıdır. CM-in 213-cü maddəsində nəzərdə tutulan vergi ödəməkdən yayınma cinayət əməlinə görə məsuliyyətə cəlbetmə müddəti isə Məcəllənin 75-ci maddəsində nəzərdə tutulan qaydada tətbiq olunmalıdır.

CM-in 75.1-ci maddəsinə əsasən, az ağır cinayətin törədildiyi gündən yeddi il keçdikdə şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz. CM-in 213-cü maddəsində nəzərdə tutulmuş vergi ödəməkdən yayınma cinayəti az ağır cinayətə aid olunduğundan, həmin cinayətin törədilməsinə görə məsuliyyətə cəlbetmə müddətinin yuxarı həddi yeddi il müəyyən edilmişdir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci ilin yanvar ayında verilmiş kreditlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə **20,2%** artmış, onun **78,8%-i** və ya **14,6 milyard manatı** uzunmüddətli olmuşdur. Kreditlərin **976,3 milyon manatının**, yaxud **5,3%**-nin ödəmə vaxtı keçmişdir.
- Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda ötən il əhalinin sayı **115,9 min nəfər** və yaxud **1,2%** artaraq 2015-ci ilin əvvəlinə **9593 min nəfər** olmuşdur. Əhalinin ümumi sayından **53,1%-i** şəhər, **46,9%-i** kənd sakinlərinin, **49,8%-i** kişilərin, **50,2%-i** isə qadınların payına düşür.
- Yanvar ayında pərakəndə ticarət şəbəkəsindən əhaliyə **1820,8 milyon manat** məbləğində istehlak malları satılmış və xidmət müəssisələri tərəfindən **615,5 milyon manatlıq** pullu xidmət göstərilmişdir.
- 2015-ci ilin yanvar ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycanda əmtəə dövriyyəsi **9,4%**, pullu xidmətlərin həcmi isə **5,5%** artmış, ölkə sakinləri ticarət şəbəkəsindən **913,8 milyon manatlıq** qida məhsulları, içkilər və tütün məmulatı və **907,0 milyon manatlıq** qeyri-ərzaq malları almışlar.

# Yeni investisiya layihələri

Bu gün demokratik inkişaf, dövlət idarəçiliyində şəffaflıq, ayrı-ayrı ölkələrin intellektual və elmi potensialının əsas göstəriciləri informasiya və kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsi ilə ölçülür. Azərbaycanda da qlobal informasiya mühitinə inteqrasiya əsas tutularaq, rabitə və İKT sektorunun inkişafına böyük önəm verilir. Ölkədə bu sahədə yeni biznes mühitinin formalaşması üçün ciddi addımlar atılır, yeni texnoparklar qurulur. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində Yüksək Texnologiyalar Parkı (YTP), «İnformasiya texnologiyalarının inkişafı» Dövlət Fondu yaradılıb.

Bu ildən başlayaraq Yüksək Texnologiyalar Parkının pilot layihələrindən olan «Biznes inkubasiya mərkəzi» də fəaliyyətə başlayıb. Artıq startap layihələri uğurla həyata keçirilir. Parkın direktor müavini Cəlal Rəhimov bildirib ki, əcnəbi mütəxəssislərlə birlikdə aparılan işlər nəticəsində tərəfdaş və rezidentlər üçün fərqli investisiya modelləri hazırlanmışdır. Bunlardan üçü prioritet kimi qəbul olunmuşdur və onların əsasında müvafiq marketinq işləri həyata keçirilir: «Bu günə qədər YTP əməkdaşları fərqli sahələrdə bir çox potensial tərəfdaş və rezidentlərlə görüşlər keçirmişdir. Həmin görüşlər nəticəsində məsləhətçilərimizlə birlikdə potensial əməkdaşlıq modellərini müəyyənləşdirmişik. Yüksək Texnologiyalar Parkı üçün Pirallahı adasında 50 hektar yer ayrılmışdır və artıq ərazinin inkişaf planı hazırlanmaqdadır».

Direktor müavini qeyd edib ki, bu investisiya layihələrinin həyata keçirilməsində məqsəd ölkədaxili innovativ iqtisadiyyatın və ekosistemin davamlı inkişafını təmin etmək, həmçinin İKT və yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən və gələcəkdə qurulacaq şirkətlərin dəstəklənməsi ilə ölkəmizin bu sahədə regional mərkəzə çevrilməsidir. Bunun nəticəsində yeni iş yerləri açılacaq, innovativ ideya sahibləri öz imkanlarını reallaşdıra biləcəklər. Onun sözlərinə görə, YTP-də fəaliyyət göstərən rezidentlər və xarici investorlar üçün Milli Məclis tərəfindən təsdiq edilmiş dörd vergi güzəşti tətbiq olunur: «İlk növbədə, gəlir və mənfəət vergisindən 7 il müddətinə azadolunmanı qeyd etmək olar. Rezidentlər, həmçinin, xaricdən idxal edilən texniki və innovativ avadanlıqlardan tutulan 18% ƏDV-dən də azad olunurlar. Digər iki güzəşt 7 il müddətinə əmlak və torpaq vergilərindən azadedilməni nəzərdə tutur».

**FƏXRİYYƏ**

# İşçilərin əmək hüquqlarının pozulması yolverilməzdir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) Dövlət Əmək Müfəttişliyi Xidmətinin apardığı araşdırmalara görə, 2014-cü ildə əmək qanunvericiliyinə əməl olunmaması ilə bağlı aşkar edilən hüquq pozuntularının böyük bir hissəsi sahibkarların fəaliyyətinə aiddir: əmək qanunvericiliyini pozanların 91%-i sahibkarlar olub. İl ərzində 11527 müəssisədə əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti həyata keçirilib.

Dövlət nəzarəti və vətəndaş müraciətlərinin araşdırılması zamanı əksəriyyəti özəl sektora aid müəssisələrdə ticarət və ictimai iaşə, topdan-satış, tikinti sektorlarında olmaqla ümumilikdə 20417 halda əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilib. Pozuntuların 6,3%-ni əməyin mühafizəsinin tibbi-sosial məsələləri, 6,1%-ni əməkhaqqının hesablanması və ya ödənilməsindəki nöqsanlar, 4%-ni texniki təhlükəsizlik qaydalarına əməl olunmaması və digər sahələr təşkil edib. Qanun pozuntuları ən çox topdan və pərakəndə ticarət obyektlərində, avtomobillərin təmiri sektorunda (bütün nöqsanların 30,4%-i), yaşayışın təşkili və ictimai iaşə (10%), emal sənayesi (6,7%), səhiyyə və sosial xidmət sahəsində (7,2%), tikintidə (15,8%) aşkar edilib. Müəyyən edilib ki, sahibkarlar dövlət büdcəsinə olan ödənişləri də vaxtında ödəmirlər. Ötən il sosial ödənişləri gecikdirənlərin 81%-i özəl sektorda çalışan iş adamları olub. İşçilərə ödənilməsi təmin edilmiş ödənclərin əksəriyyəti emal sənayesində (18,6%) və tikintiyə (22,6%) aid müəssisələrdə həyata keçirilib.

Sahibkarlıq subyektlərinə olunan xəbərdarlıq və müvafiq inzibati cərimələr müəyyən müsbət təsirini göstərib və bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi sayəsində 2015-ci ilin yanvar ayında bu cür halların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə azalıb. Amma hələ də arzuolunan nəticə əldə edilməyib. Cari ilin ilk ayında 38988 manat həcmində gecikdirilmiş sosial xarakterli ödənişlərin işəgötürənlər tərəfindən işçilərə ödənilmədiyi aşkar olunub və müvafiq tədbirlərdən sonra həmin məbləğin işçilərə ödənilməsi təmin edilib. Digər pozuntuların aradan qaldırılması vaxt tələb etdiyi üçün onların ləğvi ilə bağlı işəgötürənlərə icrası məcburi olan göstərişlər verilib.





Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin tətbiqi ötən ilin uğurlu islahat tədbirlərindən biri kimi, qeyri-rəsmi məşğulluğun aşkarlanaraq aradan qaldırılmasında, əmək bazarına nəzarətin gücləndirilməsində mühüm rol oynayıb.

Əmək bazarı ilə bağlı mövcud problemlərdən biri işçilərin pensiya yaşına çatmadan işdən çıxarılması halları ilə bağlıdır. Buna həm dövlət, həm də özəl şirkətlərdə geniş rast gəlinir. Əmək bazarında ən çox təsadüf olunan məsələlərdən biri də işə qəbul zamanı 40-50 yaşlı şəxslərə süni əngəllərin yaradılmasıdır. İşçilərə qarşı yaş məhdudiyyətlərinin qoyulması əmək qanunvericiliyinin pozulması və insanlar arasında ayrı-seçkilik əlaməti hesab olunur. Ölkə Konstitusiyasında və digər qanunvericilik sənədlərində göstərilib ki, əmək qabiliyyətli insanların 65 yaşa qədər işə qəbuluna qadağalar tətbiq oluna bilməz. Konstitusiyada hər bir insanın məşğulluğunun təmin edilməsi, təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əməkhaqqı miqdarından az olmayan haqq almaq hüququ nəzərdə tutulur.

Dövlət Əmək Müfəttişliyi Xidməti bu məqsədlə əmək qanunvericiliyinin müəyyən dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlanmasını bildirir. Sənəddə işçilərin əmək hüquqları ilə bağlı bütün məsələlərin qanunvericilik çərçivəsində həll edilməsi, normal və keyfiyyətli iş şəraitinin təmin olunması, süni yaş məhdudiyyətlərinin aradan qaldırılması və digər məqamlar öz əksini tapıb. Təkliflərdə əhalinin yüksək əməkhaqqı verən iş yerləri ilə təmin olunmasına, işçilərin əmək və sosial hüquqlarının gücləndirilməsinə dair tədbirlər nəzərdə tutulur.

İşçilərin əmək hüquqlarının qorunmasına dair təkliflər hazırlanaraq ƏƏSMN-ə təqdim edildiyini bildirən Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş katibi Natəvan Məmmədovanın sözlərinə görə, sənəddə müəssisə və təşkilatlarda kollektiv sazişlərin və müqavilələrin bağlanmasına dövlət nəzarətinin gücləndirilməsi, sosial tərəfdaşlığın səmərəliliyinin artırılması məqsədilə sosial və iqtisadi məsələlər üzrə daimi fəaliyyət göstərən üçtərəfli komissiyaların yaradılması, əmək bazarının yaxşılaşdırılması və qeyri-rəsmi məşğulluğa qarşı mübarizənin təşkili, işçilərin sosial müdafiəsi tədbirlərinin və əmək hüquqlarının qorunması, əmək qanunvericiliyinin təkmilləşdirilməsi və bu sahədə səmərəli dünya təcrübəsinin tətbiq edilməsi ilə bağlı məsələlər əks olunub. Konfederasiya nazirliklə birgə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin işçilərlə əmək müqavilələrinin bağlanmasının təmin olunması, işçilərin əməkhaqlarının düzgün hesablanması, sığortanın tətbiqi və digər məsələlərin həllinə ictimai nəzarət edəcək.

**Elbrus CƏFƏRLİ**

# Əlillərə qayğı hər zaman dövlətin diqqətindədir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Mərkəzləşdirilmiş İnformasiya Sistemi üzərində yaradılan tibbi-sosial ekspertiza və reabilitasiya altsistemi əlilliyin təyinatı prosesinin tam avtomatlaşdırılmasına yönəlib, bu da əlillik müayinələrinin aparılması üçün müvafiq məlumatların əks olunduğu göndəriş formalarının kağız daşıyıcılar vasitəsilə deyil, elektron şəkildə tibbi sosial ekspert komissiyalarına (TSEK) göndərilməsini təmin edir. Sistem vasitəsilə yaradılan elektron bazada əlillik müayinələrinin nəticələri barədə məlumatlar aidiyyəti dövlət orqanları tərəfindən müvafiq informasiyaların bu bazadan elektron qaydada əldə olunmasına yardım edir.

***Əlilliyin dinamikasında azalma müşahidə edilib***

ƏƏSMN tərəfindən tibbi-sosial ekspertiza xidmətində şəffaflığın təminatına nəzarətin gücləndirilməsi nəticəsində son bir ildə ilkin və təkrar əlillik qrupu təyin olunanların sayı nəzərəçarpacaq dərəcədə azalıb. Məsələn, ötən il ƏƏSMN-in tibbi-sosial ekspert komissiyaları tərəfindən ilkin əlillik qrupu təyin olunanların sayında 2013-cü illə müqayisədə 7664 nəfər azalma olub. Ötən il təkrar əlillik qrupu təyin olunan şəxslərin sayında kı azalma da 3937 nəfər təşkil edib, ilkin əlillik təyin olunanlar arasında ağır dərəcəli əlillərin xüsusi çəkisi isə 82,1%-dən 79,9%-ə düşməklə 6983 nəfər azalıb. Bu müddətdə tam reabilitasiya olunanlar 1802 nəfər artaraq 7667 nəfər, qismən reabilitasiya olunanlar isə 3102 nəfər artaraq 4361 nəfər təşkil edib. Başqa sözlə, tam reabilitasiya 2,9-dən 3,8%-ə, qismən reabilitasiya 0,7%-dən 2,7-ə yüksəlib.

**Ötən il ƏƏSMN-in tibbi-sosial ekspert komissiyaları tərəfindən ilkin əlillik qrupu təyin olunanların sayında 2013-cü illə müqayisədə 7664 nəfər azalma olub**

***Əlillər reabilitasiya vasitələri ilə təmin olunur***

ƏƏSMN-in məlumatına görə, son bir ildə əlilliyi olan şəxslər 26 minə yaxın reabilitasiya vasitəsi və protez-ortopedik məmulatla təmin edilib. Bununla yanaşı, fiziki imkanları məhdud şəxslərin, o cümlədən gözdən əlillərin əmək bazarına çıxışının asanlaşdırılması üçün onların peşə reabilitasiyasına cəlb olunmasına da xüsusi diqqət yetirilir. Ötən il nazirliyin xətti ilə ümumilikdə 3800-dək vətəndaş peşə hazırlığı kurslarına cəlb olunub ki, onlardan 381-i əlil olub. Əlillərin 272 nəfəri ƏƏSMN-in Sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya Mərkəzində peşə təliminə cəlb edilib. Peşə hazırlığına cəlb olunan və təlimi uğurla başa vuranların yeni yiyələndikləri peşələr üzrə məşğulluqlarının təmin olunması istiqamətində məqsədyönlü işlər görülür.

Nazirlik yanında Dövlət Məşğulluq Xidməti tərəfindən son bir ildə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 1036 nəfər vətəndaş kvota üzrə iş yerləri ilə təmin olunub, bunlardan 249 nəfərini əlilliyi olan şəxslər təşkil edib.

***Sosial müdafiə və reabilitasiya proqramı təsdiq edilib***

«2015-ci il üçün əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası Proqramı» çərçivəsində bu kateqoriyadan olan uşaqların xarici ölkələrdə ixtisaslaşmış reabilitasiyasına şərait yaradılması, həmçinin respublika daxilində müalicələrinə kömək göstərilməsi, asudə vaxtlarının təşkili məqsədilə istirahət zonalarına göndərilməsi nəzərdə tutulur. Sənəddə bu həssas təbəqədən olan insanların sosial müdafiəsi və reabilitasiyası sahəsində beynəlxalq təcrübənin tətbiqi ilə bağlı əməkdaşlıq və informasiya mübadiləsinin, onlara diqqət və qayğının artırılması məqsədilə təbliğat kampaniyasının aparılması da əksini tapıb. Proqram il ərzində «Əlilliyi olan şəxslərin IX ümumrespublika yaradıcılıq sərgi müsabiqəsi»nin keçirilməsini, idman tədbirlərinin təşkilini və əlillərin beynəlxalq yarışlarda iştirakına şərait yaradılmasını nəzərdə tutur. Proqramda milli qəhrəmanların tanıdılması kampaniyasının keçirilməsi, ayrı-ayrı əlamətdar günlər və ildönümləri ilə bağlı əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara maddi və texniki yardımın təşkili, sosial xidmət müəssisələrinə texniki yardım göstərilməsi və digər tədbirlər də nəzərdə tutulur.

**AYTƏN**

# «Nəzarət kitabcası» ilə bağlı yeni qərar qəbul olunub

Mülkiyyət formasından asılı olmayaraq, bütün müəssisə və təşkilatlarda keçirilən yoxlamaların və təftişlərin uçotunun aparılması məqsədi ilə «Nəzarət kitabçası» tətbiq edilir. Müxtəlif dövlət qurumları dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması, korrupsiya, rüşvətxorluq, vəzifədən sui-istifadə halları ilə mübarizənin gücləndirilməsi məqsədi ilə bu kitabda qeydiyyat aparmaqla öz yoxlama və ya təftişlərini həyata keçirirlər. Qanunvericiliyə görə, hər hansı yoxlama və ya təftiş nəzarət kitabına qeyd edilmədən aparıla bilməz.

İqtisadiyyat və Sənaye Nazirliyi ilə Vergilər Nazirliyi arasında bağlanılmış razılaşdırma protokoluna əsasən, vergi orqanlarında vergi uçotuna alınan vergi ödəyicilərinə «Nəzarət kitabçası» əvəzsiz olaraq təqdim edilir.

*Vergi orqanlarında uçota alınan vergi ödəyicilərinə «Nəzarət kitabçası» əvəzsiz olaraq təqdim edilir*

Vergi ödəyicisi yeni «Nəzarət kitabçası»nın alınması üçün uçotda olduğu vergi orqanına kağız daşıyıcısı və ya elektron formada müraciət edə bilər. Elektron müraciət üçün Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin «E-xidmətlər» bölməsində «Vergilər Nazirliyinə göndərilmiş müraciətlərin, sorğuların və məktubların icrasının müraciət edənlər tərəfindən onlayn izlənməsi» keçidini seçərək «İnternet Vergi İdarəsi»nin (www.e-taxes.gov.az) «Onlayn kargüzarlıq» bölməsindəki «İstifadəçi təlimatları»ndan yararlanmaq lazım gəlir.

Vergi ödəyicisinə, bu qaydadan istifadə etməklə, təsərrüfat subyektinin elektron formada qeydiyyata alınması üçün müraciət etmək imkanı da yaradılıb. Bu qaydada müraciət edildikdən sonra vergi ödəyicisi «Nəzarət kitabçası»nı şəxsən və ya səlahiyyətli nümayəndə vasitəsilə vergi orqanından götürə bilər.

«Nəzarət kitabçası» itirildikdə və ya istifadəyə yararsız hala salındıqda isə vergi ödəyicilərinin təkrar müraciətləri əsasında onlara üzərində «Dublikat» sözü yazılmış yeni «Nəzarət kitabçası» verilir.

Nazirlər Kabinetinin bu günlərdə qəbul etdiyi qərarla «Nəzarət kitabçası» haqqında Əsasnamə»də dəyişikliklər edilib. Nazirlər Kabinetinin 13 dekabr 2002-ci il tarixli 196 nömrəli qərarı ilə təsdiq edilmiş «Nəzarət kitabçası» haqqında Əsasnamə»yə əsasən, indiyə qədər vergi orqanları istisna olmaqla, digər dövlət orqanları tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada sahibkarlıq subyektlərində aparılan yoxlamalarda İqtisadiyyat və Sənaye Nazirliyinin də nümayəndəsi iştirak edirdi. Yeni qərarla Əsasnamədəki bu müddəa ləğv edilib: sahibkarlıq subyektlərində digər dövlət orqanları yoxlama apararkən bu yoxlamalarda İqtisadiyyat və Sənaye Nazirliyinin nümayəndəsinin də mütləq iştirak etməli olması barədə tələb qüvvədən düşüb.

**Rəşad SADIQOV**

# Sənaye məhəllələri

Azərbaycan Respublikasının dövlət siyasəti iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsini, o cümlədən texnologiyalar əsasında sənayenin dinamik inkişafını və şaxələndirilməsini nəzərdə tutur. Son illərdə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, minlərlə yeni iş yeri yaradılmışdır. Ölkədə rəqabətədavamlı sənaye məhsulları istehsalını artırmaq məqsədi ilə hazırda sənaye parklarının yaradılması istiqamətində iş aparılır.

Dövlət mülkiyyətindəki torpaq sahələrində sənaye məhəlləsinin yaradılması haqqında qərar Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin təklifi əsasında ölkə Prezidenti tərəfindən qəbul edilir. Sənaye məhəlləsinə bələdiyyə mülkiyyətində olan torpaq sahələri icarə müqaviləsi əsasında və ya Mülki Məcəllədə müəyyən edilmiş digər əsaslarla cəlb ediləcəkdir. Əsasnamə layihəsində sənaye məhəlləsinin yalnız sənaye təyinatlı torpaqlarda yaradıla biləcəyi qeyd olunur. Bunun üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə həmin torpaq sahəsini icarəyə vermək hüququ ilə ayrılır və yalnız sənaye məhəlləsinin fəaliyyəti məqsədi ilə istifadə edilə bilər.



Sahibkarlıq fəaliyyətinin genişləndirilməsində və yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsində bir istiqamət də ölkənin ayrı-ayrı şəhərlərində sənaye məhəllələrinin yaradılmasıdır. Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və s. məsələlərin həlli baxımından böyük əhəmiyyət kəsb edir.

Artıq «Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə»nin layihəsi hazırdır. Sənaye məhəlləsinin idarəedici təşkilatı - sənaye məhəlləsinin fəaliyyətinin təşkilini və tənzimlənməsini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxsidir. Sənaye məhəlləsinin iştirakçısı isə müəyyən edilmiş qaydada sənaye məhəlləsinin qeydiyyat şəhadətnaməsini almış və sənaye məhəlləsində fəaliyyət göstərən hüquqi şəxs və ya fərdi sahibkardır.

Sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin təmin edilməsi, əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılması məqsədi daşıyan sənaye məhəlləsi dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlarda yaradıla bilər.

Əsasnamə layihəsində sənaye məhəlləsinin fəaliyyətinin təşkili, idarə olunması və inkişafı qaydaları da göstərilib. Qeyd edilib ki, sənaye məhəlləsinin fəaliyyətinin təşkili, idarə olunması və inkişafı idarəedici təşkilat tərəfindən həyata keçirilir. İdarəedici təşkilat sənaye məhəlləsinin fəaliyyətinə görə cavabdehdir və sənaye məhəlləsinin iştirakçısı kimi fəaliyyət göstərə bilməz. İdarəedici təşkilat sənaye məhəlləsi üçün ayrılmış torpaq sahəsini istifadəyə yararlı vəziyyətə gətirməli, infrastrukturunu qurmalı, məsləhət, treninq, peşə hazırlığı və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etməlidir.

Sənaye məhəlləsinin iştirakçısı olacaq şirkət tikinti icazələrinin alınmasına vaxt sərf etməyəcək. İdarəedici təşkilat sənaye məhəlləsində tikintiyə və tikinti obyektinin istismarına icazənin alınması ilə bağlı sənaye məhəlləsinin iştirakçısının adından təmsilçilik («bir pəncərə») funksiyasını yerinə yetirəcəkdir.

Hüquqi şəxslər və fərdi sahibkarlar sənaye məhəlləsinin iştirakçısı kimi qeydiyyatdan keçmək üçün ərizə ilə idarəedici təşkilata müraciət etməlidirlər. Ərizəçi tərəfindən təqdim olunan layihə - onun sosial-iqtisadi əhəmiyyəti, sənaye məhəlləsinin profilinə uyğunluğu, ətraf mühitə təsiri, yeni iş yerlərinin açılmasına təsiri kimi qiymətləndirmə meyarlarına uyğun olaraq idarəedici təşkilat tərəfindən qiymətləndiriləcəkdir. Sənaye məhəlləsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilə tərəflərin razılaşması ilə müəyyən edilmiş müddətə bağlanılır.

Əsasnamə layihəsində göstərilir ki, sənaye məhəlləsi ilə bağlı bir sıra stimullaşdırıcı tədbirlər müəyyən edilə bilər. Torpaq sahəsinin və tikililərin icarə haqqının aşağı həddə müəyyən edilməsi, güzəştli kreditlərin verilməsi, inzibati prosedurların sadələşdirilməsi, sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili nəzərdə tutulan ilkin stimullaşdırıcı tədbirlərdəndir.

Qeyl edək ki, ilk sənaye məhəlləsi Neftçalada yaradılacaqdır. «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyətinin icraçı direktoru Rövşən Nəcəf bildirib ki, ilin sonunadək sənaye məhəlləsinin birinci fazasının yekunlaşdırılması, orada zəruri infrastrukturun və ilkin istehsal sahələrinin yaradılması nəzərdə tutulur: «Biz Neftçala sənaye məhəlləsində müəssisələrin yaradılmasına maraq göstərən 16 şirkətlə danışıqlar aparırıq. Bunlar yerli şirkətlərdir, əcnəbi şirkətlərin iştirakı ilə bağlı heç bir məhdudiyyət yoxdur. Sənaye məhəlləsinin rezidenti olmaq istəyənlərdən layihələr qəbul edirik. Rezident sahibkarlara zəruri şərait yaradacağıq. Onlara güzəştli kreditlərin verilməsi, müxtəlif məsləhət xidmətlərinin göstərilməsi, mühasibat işlərinin aparılması və məhsulların satışı ilə bağlı müvafiq təlimlərin təşkili nəzərdə tutulur».

**Fəxriyyə İKRAMQIZI**

# Sığortalanmış əmanətlərin faizləri artırıldı

## *Əmanətlərin Sığortalanması Fondu əhalinin banklarda qorunan əmanətləri üzrə faiz dərəcəsinin 9%-dən 12%-ə qaldırılması barədə qərar qəbul edib*

Yeni qaydalara əsasən, 2013-cü il avqustun 1-dən sonra banklara qoyulan bütün əmanətlərin sığorta dərəcəsi 12% müəyyən olunub. İllik 12 faizdən yuxarı faiz dərəcəsi ilə yerləşdirilmiş əmanətlər isə qorunmayan əmanət hesab edilir. Hər hansı sığorta hadisəsinə görə əmanətçiyə ödənilməli olan kompensasiya məbləği isə əvvəlki həddə, yəni 30.000 manat civarında saxlanılıb.

İqtisadçı Orxan Məmmədovun fikrincə, əhalinin banklardakı vəsaitlərinin sığorta əmsalının 9%-dən 12%-ə qaldırılması barədə qərar sığortasız bank əmanətləri üzrə faizlərin də artırılmasına səbəb olacaq. Hazırda ölkədəki kommersiya bankları tərəfindən vətəndaşların əmanətlərinə verilən illik gəlirlər təxminən 9-9,5 faizdir. Yeni qərardan sonra kommersiya bankları öz müştərilərini itirməmək , yaxud onları həvəsləndirmək üçün 9%-lə qoyulmuş əmanətlərin faizlərini artırmaq məcburiyyətində qalacaqlar. Çünki manatın məzənnəsinin ucuzlaşmasından sonra bəzi vətəndaşlar əmanətlərini banklardan çıxarmağa və ya xarici valyutaya dəyişməyə üstünlük verirlər. Çox güman ki, banklardakı vəsaitlərin sığorta əmsalının 9%-dən 12%-ə qaldırılması bu prosesə öz təsirini göstərəcək.

Yeri gəlmişkən, Əmanətlərin Sığortalanması Fondunun qərarından sonra bəzi banklar manatla yerləşdirilən faizləri artırıb ki, bu da əhalinin milli valyutaya olan inamını möhkəmləndirmək məqsədi daşıyır.

Bəs yeni qərar kommersiya banklarının kredit faizlərinə təsir edəcəkmi? O.Məmmədovun fikrincə, bank təcrübəsinə əsasən, əhalinin əmanətlərinə tətbiq olunan dividentlərin gəlir faizlərinin artırılmasından sonra istehlak kreditlərinin də faizlərinin artımı baş verib. Hazırda Azərbaycanda istehlak kreditləri (ümumi kredit portfelinin 25%-i) üzrə faiz dərəcələri 18%-dən artıqdır. Bu problemin mövcudluğunu dövlət başçısı da bildirib və kreditlər üzrə faiz dərəcələrinin azaldılması üçün müvafiq qurumlara tapşırıqlar verib. «Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında» Qanunun tətbiqi barədə fərmanda kommersiya banklarının kreditləri üzrə, eləcə də kreditlər və tənzimləyicinin uçot dərəcəsi üzrə faiz dərəcələri arasında fərqin azaldılması və aşağı salınması barədə tədbirlərin görülməsi müddəası əks olunub.

Əhalinin banklardakı vəsaitlərinin sığorta əmsalının qaldırılması kommersiya banklarının kreditləri qaldırması üçün heç bir əsas vermir. Hazırda banklar üzrə uçot dərəcəsi 3,5%-dir və bu, bankların aşağı faizlə kredit verməsinə imkan yaradır. Bu gün bankların kredit resurslarının böyük hissəsi - təxminən yarısı depozitlər hesabına formalaşır. Ona görə də banklar əsas vəsait mənbəyi olan depozitləri saxlamaq üçün səmərəli kredit siyasəti həyata keçirməlidirlər.

Mərkəzi Bank tərəfindən əmanətlər ilə bağlı mövcud dəyişikliklərin kredit bazarına təsirinin qarşısını almaq, eyni zamanda istehlak kreditlərinin faizlərinin aşağı salınması üçün həm inzibati, həm də institusional vasitələrdən istifadə ediləcəyi bildirilib.

**Elbrus CƏFƏRLİ**

# Elektron ipoteka portalı

Beynəlxalq təcrübə nəzərə alınaraq hazırlanan elektron ipoteka sistemi (EİS) əhalinin ipoteka kreditlərinə çıxış imkanlarının genişləndirilməsini və bu sahədə əməliyyatların avtomatlaşdırılmasını nəzərdə tutur. Sistemin tətbiqi ipoteka bazarının iştirakçılarına bütün texniki prosedurları real vaxt rejimində həyata keçirməyə imkan verir. Bunun sayəsində də kreditləşmə prosesinin sürətlənməsi və sistemin səmərəli fəaliyyəti təmin edilir.

Artıq EİS-in davamı olan «Elektron ipoteka portalı» da əhalinin istifadəsinə verilib. Bundan sonra ipoteka kreditindən yararlanmaq istəyən hər bir şəxs birbaşa internet vasitəsi ilə real vaxt rejimində portalın veb səhifəsinə (www.e-ipoteka.az) daxil olub müvafiq qaydada ipoteka kreditinin alınması ilə bağlı müraciət edə bilər. Bunun üçün ilkin mərhələdə qeydiyyatdan keçərək «Şəxsi kabinet»in yaradılması vacibdir. Bu, portalda vətəndaşlar tərəfindən ümumi və şəxsi məlumatların daxil edilməsi yolu ilə yaradılan və yalnız vətəndaşın daxil ola biləcəyi xüsusi bir bölmədir. Burada vətəndaş bildirişdə qeyd olunmuş müddət ərzində aktivləşdirmə kodunu və müvafiq sənədləri müvəkkil kredit təşkilatına təqdim etmədiyi halda, elektron müraciət aktiv ərizəçi statusundan çıxarılaraq avtomatik ləğv edilir və ona bu barədə bildiriş göndərilir. Aktiv ərizəçi statusu ləğv edilmiş vətəndaş ipoteka krediti üçün yenidən müraciət edə bilər. Gözləmə siyahısına daxil olan elektron müraciətlər yalnız vətəndaşın özü tərəfindən ləğv edilə bilər.

İpoteka kreditləri üzrə müraciətlərin real vaxt rejimində aparılması ipoteka kreditindən yararlanmaq istəyən hər bir şəxsə geniş imkanlar yaratmaqla yanaşı, rahatlığın təmin olunmasına, vaxt itkisinin qarşısının alınmasına, ipoteka kreditləşməsi sahəsində şəffaflığın artırılmasına, eləcə də Azərbaycan İpoteka Fondunun (AİF) nəzarət mexanizminin gücləndirilməsinə xidmət edəcək. Portal vasitəsilə vətəndaşlar ipoteka kreditləşməsi üzrə normativ sənədlərlə, ipoteka kreditləşməsinin şərtləri, AİF-in müvəkkil təşkilatlarının siyahısı ilə tanış ola, ala biləcəyi ipoteka kreditinin məbləğini hesablamaq üçün ipoteka kalkulyatorunun xidmətlərindən istifadə edə, eləcə də kredit borcu, ödənişlər və digər statistik məlumatları əldə edə bilərlər. Portalın tətbiqi MKT-lər tərəfindən vətəndaşların müraciətlərinə baxılmasında növbəliliyin təmin edilməsinə, ipoteka kreditlərinin rəsmiləşdirmə müddətinin və əməliyyat xərclərinin əhəmiyyətli dərəcədə azalmasına, ümumilikdə isə ipoteka kreditləşməsinin sadələşdirilməsinə xidmət edir.

*İstənilən şəxs real vaxt rejimində portalın veb səhifəsinə daxil olub müvafiq qaydada ipoteka kreditinin alınması ilə bağlı müraciət edə bilər*

Kreditin verilmə şərtlərinə görə, adi və güzəştli ipoteka kreditlərinin hər biri üçün ayrı-ayrılıqda maksimal məbləğ 50 min manatdır. Maksimal illik faiz dərəcəsi adi ipotekada 8%, güzəştli ipotekada 4% təşkil edir. Maksimal müddət müvafiq olaraq 25 və 30 il, ilkin ödəniş isə 20% və 15%-dir. Fondun vəsaiti hesabına verilən ipoteka kreditləri ölkə vətəndaşlarına Azərbaycan manatı ilə verilməli, kreditin məbləği kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən daşınmaz əmlakın bazar qiymətinin 80%-dən çox olmamalıdır. İpoteka predmeti yalnız mənzil və ya fərdi yaşayış evi ola bilər, ipoteka kreditləri üzrə ödəniləcək aylıq məbləğ borcalanın aylıq məcmu gəlirinin 70%-dən çox olmamalıdır. Kreditin son ödəniş tarixinə borcalanın yaşı qanunvericiliklə müəyyən olunmuş pensiya yaş həddini keçməməlidir. İpoteka kreditləri üzrə güzəştlərdən şəhid ailəsinin üzvü, Milli Qəhrəmanın özü və ya ailə üzvləri, məcburi köçkün və ya ona bərabər tutulan şəxslər, üç ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyən şəxs, elmlər namizədi və ya doktoru elmi dərəcəsi olan şəxslər, idman sahəsində xüsusi xidmətləri olan şəxslər, üç ildən az olmayan müddətdə hərbi xidmətdə olan, eləcə də ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları istifadə edə bilərlər. Lakin «Hərbi vəzifə və hərbi xidmət haqqında» Qanunun bir sıra maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçulara ipoteka krediti üzrə güzəştlər şamil olunmur. İpoteka kreditləri üzrə güzəştlərdən istifadə etmək hüququ olan hər bir ailə bu güzəştlərdən yalnız bir dəfə istifadə edə bilər.

İpoteka kreditindən yararlanmaq istəyən hər bir şəxs müvəkkil kredit təşkilatlarının (MKT) ipoteka kreditləri üzrə təklif etdiyi şərtlərə diqqət yetirməli, onları təhlil etdikdən sonra öz müraciətini təsdiqləməlidir. Elektron müraciət qeydiyyata alındıqdan sonra onun bank tərəfindən qəbuluna və statusuna (aktiv ərizəçi və ya gözləmə siyahısı) dair müraciət edən şəxsə avtomatik rejimdə şəxsi kabinetə, elektron poçt ünvanına və mobil telefon nömrəsinə bildiriş göndərilir. Aktiv ərizəçi statusuna daxil edilmiş vətəndaş bildirişdə qeyd olunmuş müddət ərzində aktivləşdirmə kodu və sənədlərlə birlikdə banka gəlməlidir. Vətəndaş ona ünvanlanmış elektron öz profili, kredit borcu, ödənişlər və digər statistik məlumatları əldə edə bilir. Kabinetə giriş yalnız avtorizasiya vasitəsilə, istifadəçi adı və şifrənin daxil edilməsi ilə mümkündür.

Portaldan istifadə edən vətəndaşların diqqət etməli olduğu bəzi məqamlar da var. İstifadəçi özünün şifrəsini tam məxfi saxlamalıdır. Əgər istifadəçi öz şifrəsinin kiməsə məlum olmasından şübhələnərsə və ya bu barədə xəbər tutarsa, dərhal portalın inzibatçısına məlumat verməli və şifrəsini müvafiq qaydada dəyişməlidir. İstifadəçinin özü haqqında, hesabları və ya digər maliyyə təşkilatlarında olan hesabları barədə yanlış, qeyri-dəqiq və ya natamam məlumatlar təqdim etməsi, portalın xidmətlərindən qeyri-qanuni, dələduzluq məqsədləri ilə istifadə olunması, portalda eyni istifadəçi tərəfindən iki və ya bir neçə «şəxsi kabinet»in açılması kimi hallara yol verilmir.

**AYTƏN**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizin davamını sizə təqdim edirik. Bir daha bildiririk ki, ilk olaraq yeni hesablar planı üzrə 111, 112 və 113 (sonra 101, 102 və 103) hesablara dair ikili yazılışları təqdim edəcəyik. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır.

**7. ƏDV ödəyicisi tərəfindən nağdsız qaydada hər mərtəbəsi eyni sahəyə malik 2 mərtəbədən ibarət binanın (hazır tikilinin) alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 08.01.2014 | 113, Tamamlanmamış kapital qoyuluşları | Bina alınmışdır (ƏDV-siz məbləğ) | 50000 | |
| 08.01.2014 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Bina alınmışdır (ƏDV-siz məbləğ) | | 50000 |
| 08.01.2014 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış binanınn dəyərinin üzərindəki ƏDV | 9000 | |
| 08.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış binanınn dəyərinin üzərindəki ƏDV | | 9000 |
| 10.01.2015 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Alınmış binannın 2-ci mərtəbəsi istismara verilib (binanın ikinci mərtəbəsindən ofis qismində daxili məqsədlər üçün istifadə olunması nəzərdə tutulub) | 25000 | |
| 10.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Alınmış binannın 2-ci mərtəbəsi istismara verilib (binanın ikinci mərtəbəsindən ofis qismində daxili məqsədlər üçün istifadə olunması nəzərdə tutulub) | | 25000 |
| 10.01.2015 | 121, Daşınmaz əmlaka investisiyalar – ilkin dəyər | Alınmış binannın 1-ci mərtəbəsi istismara verilib (binanın birinci mərtəbəsindən başqa icarəyə götürənlərə icarəyə verilməsi üçün nəzərdə tutulub) | 25000 | |
| 10.01.2015 | 113, Tamamlanmamış kapital qoyuluşları | Alınmış binannın 1-ci mərtəbəsi istismara verilib (binanın birinci mərtəbəsindən başqa icarəyə götürənlərə icarəyə verilməsi üçün nəzərdə tutulub) | | 25000 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Binanın ƏDV-siz dəyəri bank hesabından köçürülüb | 50000 | |
| 12.01.2015 | 222, Bankda olan cari manat hesabı | Binanın ƏDV-siz dəyəri bank hesabından köçürülüb | | 50000 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Binanın dəyərinin ƏDV-si ƏDV depozit hesabından binasatanın ƏDV depozit hesabına köçürülüb | 9000 | |
| 12.01.2015 | 223, ƏDV depozit hesabı | Binanın dəyərinin ƏDV-si ƏDV depozit hesabından binasatanın ƏDV depozit hesabına köçürülüb | | 9000 |
| 12.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Və ya binanın dəyərinin ƏDV-si bank hesabından binasatanın ƏDV depozit hesabına köçürülüb | 9000 | |
| 12.01.2015 | 222, Bankda olan cari manat hesabı | Və ya binanın dəyərinin ƏDV-si bank hesabından binasatanın ƏDV depozit hesabına köçürülüb | | 9000 |
| 12.01.2015 | 521, Vergi öhdəlikləri | Binasatandan alınmış VHF üzrə avadanlığın dəyərinin ƏDV-si əvəzləşdirilir | 9000 | |
| 12.01.2015 | 241, Əvəzləşdirilən ƏDV | Binasatandan alınmış VHF üzrə avadanlığın dəyərinin ƏDV-si əvəzləşdirilir | | 9000 |

**8. ƏDV ödəyicisi tərəfindən avadanlıqın və binnın əvəzsiz olaraq (haqqı ödənilmədən) alınması**

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 08.01.2014 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Əvəzsiz olaraq alınmış avadanlıq mədaxil olunub (qiymətləndirilən bazar qiyməti ilə) – avadanlıqdan istehsal məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulub | 5000 | |
| 08.01.2014 | 611, Sair əməliyyat gəlirləri | Əvəzsiz olaraq alınmış avadanlıq mədaxil olunub (qiymətləndirilən bazar qiyməti ilə) – avadanlıqdan istehsal məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulub | | 5000 |
| 08.01.2014 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Əvəzsiz olaraq alınmış bina mədaxil olunub (qiymətləndirilən bazar qiyməti ilə) – binadan bütövlükdə istehsal məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulub | 50000 | |
| 08.01.2015 | 611, Sair əməliyyat gəlirləri | Əvəzsiz olaraq alınmış bina mədaxil olunub (qiymətləndirilən bazar qiyməti ilə) – binadan bütövlükdə istehsal məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulub | | 50000 |
| 08.01.2015 | 121, Daşınmaz əmlaka investisiyalar – ilkin dəyər | Və ya əvəzsiz olaraq alınmış bina mədaxil olunub (qiymətləndirilən bazar qiyməti ilə) – binadan bütövlükdə başqa icarəyə götürənlərə icarəyə verilməsi üçün istifadə edilməsi nəzərdə tutulub | 50000 | |
| 08.01.2015 | 611, Sair əməliyyat gəlirləri | Və ya əvəzsiz olaraq alınmış bina mədaxil olunub (qiymətləndirilən bazar qiyməti ilə) – binadan bütövlükdə başqa icarəyə götürənlərə icarəyə verilməsi üçün istifadə edilməsi nəzərdə tutulub | | 50000 |
| 08.01.2015 | 111, Torpaq, tikili və avadanlıqıar – ilkin dəyər | Və ya əvəzsiz olaraq alınmış avadanlıq mədaxil olunub (qiymətləndirilən bazar qiyməti ilə) – avadanlıqdan bütövlükdə başqa icarəyə götürənlərə icarəyə verilməsi üçün istifadə edilməsi nəzərdə tutulub | 5000 | |
| 08.01.2015 | 611, Sair əməliyyat gəlirləri | Və ya əvəzsiz olaraq alınmış avadanlıq mədaxil olunub (qiymətləndirilən bazar qiyməti ilə) – avadanlıqdan bütövlükdə başqa icarəyə götürənlərə icarəyə verilməsi üçün istifadə edilməsi nəzərdə tutulub | | 5000 |

# Borclu vergi ödəyiciləri

| S/N | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|---|---|
| 1 | Bakı VD | «SVİT HAUS» MMC | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| 2 | Bakı VD | «KAPİTAL TİKİNTİ» MMC | BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU |
| 3 | Bakı VD | «KRİSTAL SƏNAYE İNŞAAT» MMC | BAKI ŞƏHƏRİ NİZAMİ RAYONU |
| 4 | Bakı VD | «RƏVAN PEŞƏKAR FUTBOL KLUBU» MMC | BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU |
| 5 | Bakı VD | ƏLİBƏY HÜSEYNZADƏ adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| 6 | Bakı VD | «ACA-MEBEL» ASC | BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU |
| 7 | Bakı VD | «AZKOMP» MMC | BAKI ŞƏHƏRİ YASAMAL RAYONU |
| 8 | Bakı VD | «RİYAD-FARM» MMC | BAKI ŞƏHƏRİ SABUNÇU RAYONU |
| 9 | Bakı VD | «DƏRƏÇİÇƏK-A» MMC | BAKI ŞƏHƏRİ SABUNÇU RAYONU |
| 10 | Bakı VD | «KOMPUTEX» MMC | BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU |
| 11 | Bakı VD | «ŞAHAB» MƏNZİL-TİKİNTİ KOOPERATİVİ | BAKI ŞƏHƏRİ XƏTAİ RAYONU |
| 12 | Bakı VD | «SABUNÇU İSTEHSALAT XİDMƏTİ BAZASI» ASC | BAKI ŞƏHƏRİ SABUNÇU RAYONU |
| 13 | 2 saylı ƏVD | «HYDROSERV CASPIAN LIMITED» şirkətinin Azərbaycan Respublikasındakı filialı | SUMQAYIT ŞƏHƏRİ |
| 14 | 2 saylı ƏVD | «İMEDİ ART» MMC | ABŞERON RAYONU |
| 15 | 5 saylı ƏVİ | «SAHİBKARLAR KREDİT İTTİFAQI» MMC | SABİRABAD RAYONU |
| 16 | 10 saylı ƏVİ | «SLAYD-CS» MMC | QƏBƏLƏ RAYONU |
| 17 | 10 saylı ƏVİ | «TERMİD-KM» MMC | QƏBƏLƏ RAYONU |
| 18 | 10 saylı ƏVİ | «RECOVE-CM» MMC | QƏBƏLƏ RAYONU |
| 19 | 10 saylı ƏVİ | «OĞUZ-ŞƏRAB» ASC | OĞUZ RAYONU |
| 20 | 11 saylı ƏVD | «FAMİLOĞLU» MMC | YEVLAX RAYONU |
| 21 | 11 saylı ƏVD | «MİNGƏÇEVİR ŞÜŞƏ LİFİ» ASC | MİNGƏÇEVİR ŞƏHƏRİ |
| 22 | 11 saylı ƏVD | «MİNGƏÇEVİR REGENERAT» ASC | MİNGƏÇEVİR ŞƏHƏRİ |
| 23 | 12 saylı ƏVD | «GƏNCƏ-QƏNNADI» ATSC | GƏNCƏ ŞƏHƏRİ |
| 24 | 12 saylı ƏVD | «GƏNCƏ-MƏNZİL-TİKİNTİ» ATSC | GƏNCƏ ŞƏHƏRİ |
| 25 | 12 saylı ƏVD | «AZƏRTİKİNTİSERVİS» ASC-nin 9 №-li ixtisaslaşdırılmış tikinti-quraşdırma idarəsi | GƏNCƏ ŞƏHƏRİ |
| 26 | 12 saylı ƏVD | «GORANBOY-AQROTEXSERVİS» ATSC | GORANBOY RAYONU |
| 27 | 13 saylı ƏVİ | «AZ İMPULS LTD» MMC | BALAKƏN RAYONU |
| 28 | 13 saylı ƏVİ | «KAPELLA» MMC | BALAKƏN RAYONU |
| 29 | 13 saylı ƏVİ | «GOLDEN PARK» MMC | BALAKƏN RAYONU |
| 30 | 14 saylı ƏVİ | «KARVAN HOLDİNQ» MMC | TOVUZ RAYONU |



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Məcburi audit aparılması tələb olunmayan təsərrüfat subyektləri

Hazırki qanunvericiliyin məcburi auditlə bağlı tələblərinə əsasən təsərrüfat cəmiyyətlərinin böyük əksəriyyəri (ASC, QSC, MMC, TO, Bələdiyyələr və sair şirkətlər) məcburi auditin obyektidirlər. Lakin elə təsərrüfat subyekləri vardır ki, fəaliyyəti, statusu və digər əlamətlərinə görə onlarda məcburi audit aparılmasını praktik olaraq ya tətbiq etmək mümkün olmur, ya da qanunvericilik inkar edir. Yəni, bəzi təsərrüfat subyektlərinin maliyyə hesabatları ilə bağlı məcburi qaydada audit aparmamaq hüququna malik olduğunu isbatlamaq mümkündür.

Əvvəla, maliyyə hesabatlarının qanunla məcburi auditdən keçməsi tələb olunmayan təsərrüfat subyektləri barədə hər hansı qanuni təsdiqlənmiş siyahı və ya konkret qanuni müddəalar mövçud olmasa da, ayrı-ayrı qanunvericilik aktlarının müddəalarının məzmunlarından belə qənaətə gəlmək olur ki, aşağıda göstərilən təsərrüfat subyektləri məcburi auditə cəlb olunmur.

**Qeyri-hökumət təşkilatları.** «Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2007-ci il tarixli 155 №-li qərarı ilə təsdiq edilmiş «Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri» barədə məlumatlarda məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin adları açıqlanmışdır. Adları açıqlanan təsərrüfat subyektləri içərisindən 14 iyun 2011-ci il tarixli 95 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən edilmiş dəyişikliklərə görə QHT-lər çıxarılmışdır.

«Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının Qanununa görə QHT anlayışına ictimai birliklər və fondlar daxildir. Qanuna görə siyasi partiyalar, həmkarlar ittifaqları, dini birliklər, yerli özünüidarə orqanları QHT anlamına gəlmir. Lakin fondlar adları açıqlanan təsərrüfat subyektləri içərisində ayrıca göstərildiyinə görə belə aydın olur ki, yalnız ictimai birliklər məcburi auditdən azaddırlar.

Lakin bir çox hallarda QHT-lər əsasən xarici donorlarla bağlanılan qrant müqaviləsi öhdəliklərinin yerinə yetirilməsi məqsədilə auditdən keçməkdə maraqlı olurlar. Çünki QHT-lərə əvəzsiz maliyyə vəsaiti verən xarici və yerli donor təşkilatlar həmin pulların təsdiqlənmiş qrant büdcəsində nəzərdə tutulan istiqamətdə düzgün, səmərəli və şəffaf istifadəsi barədə məlumatlı olmaları üçün müstəqil auditor hesabatına üstünlük verirlər. Qrant büdcəsində vəsait ayırmaqla qrant verən donor təşkilat öz tələbi daxilində resipiyentin (QHT-nin) məcburi auditdən keçməsini tələb edə bilər. Amma bu, qanunun tələbi deyildir.

**Müəyyən müddətə fəaliyyətini müvəqqəti dayandıran kommersiya hüquqi şəxsləri.** Kiçik sahibkarlıq subyektləri kimi çıxış edən, lakin fəaliyyətini müəyyən (1 il, 3 il, 5 il və ya çox) müddətə müvəqqəti dayandırmaq məqsədilə vergi orqanına fəaliyyətinin dayandırılması ilə əlaqədar müvafiq ərizə (arayış) təqdim edən hüquqi şəxslər məntiqlə məcburi auditin obyekti olmamalıdır. Çünki onlar fəaliyyətini dayandırdığı müddət ərzində təsərrüfat əməliyyatları da baş vermədiyinə görə, maliyyə hesabatlarında hər hansı ciddi və ya ümumiyyətlə dəyişikliklər olmayacaqdır. Fəaliyyətini dayandırdığı maliyyə ilinin maliyyə hesabatları məcburi auditdən keçdikdən sonra növbəti illərdə auditdən keçməsinə zərurət yaranmır. Çünki sonuncu maliyyə hesabatlarının göstəriciləri fəaliyyətin bərpa olunduğu maliyyə ilinin əvvəlinə qədər dəyişməz qalır.

**Fərdi sahibkarlar.** «Auditor xidməti haqqında» Azərbaycan Respublikasinin Qanununa görə, Audit - əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır. Həmin qanuna görə, təsərrüfat subyektlərində qanunla müəyyənləşdirilən xidmətləri göstərmək auditor xidməti hesab edilir. Göründüyü kimi, qanunun hər iki müddəasında «təsərrüfat subyektləri» ifadəsi göstərilmişdir. Təsərrüfat subyektləri dedikdə, hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər başa düşülür. Deməli, fərdi sahibkarlar da öz fəaliyyətlərinin yoxlanılması üçün müstəqil auditor cəlb edə bilərlər. Lakin fərdi sahibkarların maliyyə hesabatlarının məcburi qaydada müstəqil auditor tərəfindən yoxlanılmasına cəlb olunması barədə qanunvericilikdə hər hansı tələb mövcud deyildir.

Ümumiyyətlə, məcburi auditə cəlb olunma kriteriyaları əsasən təşkilati-hüquqi formaya (MMC, ASC), fəaliyyət növünə (bank, sığorta və sair fəaliyyət) və mülkiyyət mənbəyinə (xarici investisiyalı) görə müəyyənləşdirilib. Fərdi sahibkarlıq fəaliyyəti sadalanan kriteriyaların heç birinə uyğun gəlmir. Buna baxmayaraq, qanunvericilikdə konkret olaraq fərdi sahibkarların maliyyə hesabatlarının ümumi qaydada məcburi auditdən keçməsi nəzərdə tutulmasa da, məhkəmə və digər dövlət orqanlarının öz səlahiyyətləri daxilində fərdi sahibkarların maliyyə-təsərrüfat fəaliyyətinin məcburi qaydada müstəqil auditor tərəfindən yoxlanılması mümkündür.

beynəlxalq panoram

# Belarusda tüfeylilıyə görə vergi tətbiq ediləcək

*Ölkədə işsiz vətəndaşlardan rüsum alınması planlaşdırılır. Yığımın rəsmən heç yerdə işləməyən, vergi ödəməyən və müvafiq olaraq dövlət xərclərinin maliyyələşdirilməsində iştirak etməyən əmək qabiliyyətli vətəndaşlardan alınması nəzərdə tutulur.*



Ödəmə məbləği 20 baza kəmiyyəti (1 baza kəmiyyəti 180 min Belarus rublu və ya təxminən 12 dollardır) təşkil edəcək. İşsizlər bu vergini ildə birdəfəlik ödəməlidir. Ödəmədən yayınmaya görə inzibati məsuliyyət nəzərdə tutulacaq. Hökumətin mövqeyinə görə, bu rüsumun tətbiqi qeyri-qanuni sahibkarlıq kimi fəaliyyətin, yəni şəxsin işləyərək vergi ödəmədiyi halların qanuniləşdirilməsi kimi başa düşülməməlidir. Prezident Aleksandr Lukaşenkonun dəqiqləşdirməsinə görə, vətəndaşların məşğulluğunun stimullaşdırılması haqqında dekret büdcəyə vergi ödəməyən şəxslərə qarşı yönəldilib.

Sənəddə fəaliyyət qabiliyyətinin olmaması və ya başqa səbəblərdən vergidən azad olunacaq vətəndaşların kateqoriyaları da qeyd olunacaq.

# Ukraynanın vilayət mərkəzlərində daşınmaz əmlaka yeni vergi tətbiq edilib

*2015-ci ildən Ukraynada yeni daşınmaz əmlak vergisi tətbiq olunur. Bu, yerli büdcənin doldurulması üçün nəzərdə tutulan vergilərdəndir. Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, vergidən azad olunan mənzil sahəsinin minimum həddi 60m², evlərin - 120m² təşkil edir.*

Məsələn, mənzilin sahəsi 65m2 təşkil etdikdə vergi yalnız 5m²-dən ödənilir. Əgər vergi ödəyicisinə bir neçə növ daşınmaz əmlak məxsusdursa, vergidən azad olunan sahənin minimum həddi 180m² təşkil edir.

Verginin maksimum dərəcəsi minimum əməkhaqqının 2%-ni keçməməlidir. Bu göstəricilərə əsasən, şəhər şuralarına mənzillərin vergi dərəcələri və vergidən azad olunan mənzillərin sahəsinin ölçüsünü müstəqil müəyyən etmək səlahiyyətləri verilib.

# Çin alqı-satqıdan tutulan vergini əcnəbi turistlərə qaytaracaq

Hökumət qiyməti 500 yuandan (81 dollar) artıq mal alan əcnəbi turistlərdən tutulan 11%-lik vergini onlara geri qaytarılacağını elan edib. Maliyyə Nazirliyinin məlumatında bildirilir ki, bu qərar vergitutma sisteminin optimallaşdırılması və turizmin inkişafı məqsədilə qəbul olunmuşdur.

Ödənilmiş vergilər ÇXR ərazisini 183 sutka müddəti bitənədək tərk edən əcnəbilərə qaytarılacaq, qaytarılma prosesi isə mal alındıqdan sonrakı 90 sutka ərzində rəsmiləşdirilməlidir.



Verginin qaytarılması beynəlxalq hava limanlarındakı xüsusi məntəqələrdə və sərhəd-keçid məntəqələrində rəsmiləşdiriləcək. Bunun üçün turist şəxsiyyət vəsiqəsini və alqı-satqını təsdiqləyən kassa çeki təqdim etməlidir. Alınmış malların dəyəri 10 min yuandan artıq olmadıqda turistə vergi nağd şəkildə və ya onun bankdakı hesabına qaytarıla bilər. 10 min yuandan artıq məbləğ isə yalnız bank köçürməsi vasitəsilə qaytarılır.

Yenilik rublun məzənnəsi aşağı düşdüyünə görə, Çinə Rusiya turistlərinin axınını azalda bilər. Yeni qaydaların qüvvəyə minmə tarixi barədə hələlik məlumat verilmir.

Qeyd edək ki, «Tax Free» sistemi bir çox ölkələrdə fəaliyyət göstərir və ƏDV məbləğinin qaytarılmasını nəzərdə tutur.

Xarici ölkələrin təcrübəsi

# Niderland Krallığı: gəlir vergisi

***Vergi dərəcələri:***

1-ci və 2-ci bölmədəki gəlir vergisinin dərəcələri müvafiq olaraq 5,1% və 10,85%-dir, 31,15% dərəcə isə bu bölmələr üzrə sosial sığorta ödənişlərinin dərəcəsini ifadə edir. Rəsmi pensiya yaşına çatmış fiziki şəxslərin gəlirləri bu bölmələr üzrə müvafiq olaraq 18,35% və 24,1% dərəcə ilə (hər iki dərəcəyə 13,25% dərəcəlik milli sosial sığorta ayırmaları daxildir) gəlir vergisinə cəlb olunur.

**Dərəcələr:**
2014-cü ildə 1-ci qrupa aid edilən məcmu gəlirlər üzrə dərəcələr aşağıdakı kimi olmuşdur:

| № | Vergi tutulan gəlir (avro) | Ən yüksək məbləğdən vergi (avro) | Dərəcə |
|---|---|---|---|
| 1 | 19 645-ə qədər | 7 121 | 36,25% (sosial sığorta daxil olmaqla) |
| 2 | 19 645 - 33 363 | 12 882 | 42% (sosial sığorta daxil olmaqla) |
| 3 | 33 363 - 56 531 | 22 612 | 42% |
| 4 | 56 531-dən artıq | | 52% |

Növbəti 42% və 52% dərəcələr heç bir sosial sığorta ödənişlərini özündə ehtiva etmir.

Sosial sığorta ödənişləri hər bir işçinin 1-ci qrup gəlirlərinə daxil olan bütün növ gəlirlərindən hesablanmalı və ödəmə mənbəyində tutularaq işçinin əməkhaqqından çıxılmalıdır. Ümumiyyətlə, işəgötürənlər işçinin əməkhaqqından, istənilən növ muzdlu işdən gəlirindən gəlir vergisi tutaraq büdcəyə ödəməlidirlər. Təqaüd və digər sosial yönümlü ödəmələrdən də ödəmə mənbəyində vergi tutulur. Əməkhaqqından tutulan vergilər avans ödənişləri olduğundan fiziki şəxsin yekun gəlir vergisi öhdəliyi hesablanarkən nəzərə alınır.

2011-ci il tarixdən işəgötürən işçinin məcmu əməkhaqqından 1,5% həcmində vergidən azad muzdlu iş xərcləri güzəşti tətbiq edə bilər.

İşçinin evdən işə gələrkən gündəlik qət etdiyi məsafə 10 km.-dən artıq olarsa, işçinin ictimai nəqliyyata çəkdiyi xərclər gəlirdən çıxıla bilər. İcazə verilən maksimal çıxılma məbləği gündəlik qət edilən məsafə 80 km-dən artıq olarsa, illik 2036 avro təşkil edir. İşçinin muzdlu işdən əldə etdiyi gəlirdən aktual xərclər çıxılmır.

Fərdi sahibkar ildə öz biznesinə ümumilikdə 1225 saat sərf etmişdirsə, ona gəlirdən 7280 avro çıxmaq hüququ verilir. Bu güzəşt sahibkarlıq fəaliyyətinin ilk 3 ilində 2123 avroyadək artılır və ümumilikdə 9403 avro təşkil edir. Əgər fərdi sahibkar rəsmi pensiya yaşına çatmışdırsa, bu güzəşt 50% azaldılır.

Vergi ödəyicisi təqvim ili ərzində araşdırma-tədqiqat və inkişaf işlərinə ən azı 500 saat sərf edərsə, yuxarıda qeyd olunan güzəşt 12.310 avroyadək artırılır. Müvafiq sahədə sahibkarlıq fəaliyyətinin ilk 3 ili üçün güzəşt daha 6157 avro artırılır.

***Zərərlər:***

Gəlirlərin müəyyən bir qrupu üzrə yaranmış zərər digər qrupa aid gəlir hesabına silinə bilməz. Lakin eyni bir qrupa aid zərər həmin qrupdan olan digər gəlir hesabına silinə bilər. Bundan sonra qalan silinməmiş zərər əvvəlki 3 il hesabına silinə və ya gələcək 9 il müddətinə aid edilə bilər. Sahibkarlıq zərərləri də eyni növ gəlirdən çıxılmaq məqsədilə əvvəlki 3 il müddətinə və ya gələcək 9 il müddətinə aid edilə bilər.

Səhmlərdən yaranan kapital zərərləri ilk növbədə eyni qrup gəlirlərdən birinin hesabına silinə bilər. Bundan sonra silinməmiş qalan zərər əvvəlki 1 il müddətinə və ya gələcək 9 il müddətinə aid edilə bilər.

***Ödəmə mənbəyində tutulan vergilər:***

Rezident müəssisənin mənfəətin bölüşdürülməsi üzrə səhmlərdən səhmdarlara, kreditorlara ödədiyi faiz və dividendlərdən ödəmə mənbəyində 15% dərəcə ilə vergi tutulur. Rezident vergi ödəyicisi yekun gəlir vergisi öhdəliyini hesablayarkən ödəmə mənbəyində ödədiyi vergini nəzərə ala bilər. Digər növ faizlər və royaltilər ödəmə mənbəyində verginin subyekti deyildir.

# Mənzillərin kirayə verilməsinə görə vergi artıb

*Minsk şəhər soveti mənzilləri uzunmüddətli icarəyə verənlər üçün müəyyən edilmiş vergini artırıb. Fevral ayından başlayaraq aylıq ödəniş 16,7-21,4% artıb.*

Minskdə büdcəyə ayırmaların məbləği rayondan və yerli infrastrukturdan asılıdır. Ənənəvi olaraq mərkəzdə dərəcələr yüksəkdir. Mənzili icarəyə verənlər birinci iqtisadi-planlaşdırma zonasında büdcəyə hər otağa görə ayda 240 min rubl (100 Belarus rublu = 0,007 manat) ödəməlidirlər. İkinci iqtisadi-planlaşdırma zonasında mənzil sahibləri üçün vergi ayda 30 min rubl (17,6%) artırılaraq 200 minə çatdırılıb. Yerli icarə mənzillərinin sahibləri ayda hər otağa görə büdcəyə 170 min rubl ödəyəcəklər. Onlar üçün faiz dərəcəsi 30 min rubl (21,4%) artırılıb.

Dairəvi yoldan kənarda yerləşən, icarəyə verilən mənzillərdən gəlir vergisi ayda 120 min əvəzinə 140 min rubl təşkil edəcək. Maşın yerlərini, metal və ya taxta qarajları icarəyə verənlər 50 mindən-80 minədək rubl, dəmir-beton və ya kərpic qarajları icarəyə verənlər isə rayondan asılı olaraq ayda 90 mindən 100 minədək rubl ödəməlidirlər. Minskin digər qeyri-yaşayış binalarında icarəyə verilən hər bir kvadratmetr sahə üçün vergi 20-40 min rubladək təşkil edəcək.

Bu vergilər yalnız fiziki şəxslər üçün qüvvədədir və daşınmaz əmlakın icarəsi üzrə sahibkarlıq fəaliyyətindən alınan gəlirlərə şamil edilmir.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Kara dənizində ada; 2.Xorla və tək oxunan, adətən təntənəli mahiyyət daşıyan böyük musiqi əsəri; 3.ABŞ-ın Nebraska ştatında şəhər; 4.Yakutiya və Xabarovsk diyarında çay; 5.Drapın, məxmərin ən yaxşı növlərinin adı; 6.SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, SSRİ-nin və Azərbaycanın xalq rəssamının adı; 9.Hindistanda şəhər; 13.RF-nin Kemerovo vilayətində çay; 15.Müsəlmanların müqəddəs kitabı Quranın maidə surəsinin 55-ci ayəsinə verilən ad; 16.Nəm mala üzərində sulu boya ilə çəkilmiş şəkil, rəsm, naxış; 17.Əsasən Novruz bayramı günlərində uşaq və gənclər arasında oynanılan qədim Azərbaycan oyunlarından biri; 18.Azot turşusunun duzu; 20.Ölkəmizdə qız adı və yaz fəsli; 21.Seneqalda yaşayan xalq. **Soldan sağa:** 1.Doktorluq dissertasiyası hazırlamaq üçün bir elmi idarəyə təhkim olunmuş alim; 5.Bolqarıstanın şimalında çay; 7.Qiymətli kağızlar bazarında satın alınmış səhmlərin dəyərinin ödənişinin növbəti hesablaşma dövrünə qədər təxirə salınması imkanı; 8.Türk mifologiyasında korlar tanrısı *(xan)*; 10.Yaponiyanın Tokiodan sonra ikinci böyük şəhəri; 11.İranda duzlu göl; 12.XIX əsr görkəmli Azərbaycan şairi; 14.Yağda qovrulmuş un və doşabdan, bəzən də baldan, şəkərdən bişirilən Şərq şirniyyatı; 19.Uzaq Şərqdə çay; 21.Rəqəmsal kamera, kameralı mobil telefon və ya planşet ilə çəkilən avto-portret növü; 22.Sahibinə hər hansı müəssisənin aktivlərində müəyyən bir paya sahiblik və payına uyğun olaraq müəssisənin gəlirinin bir hissəsini divident şəklində əldə etmək hüququ verən qiymətli kağız; 23.Şeirlərini Azərbaycan və fars dillərində yazmış böyük Azərbaycan şairi; 24.Gündə bir cüt öküzlə şumlanan sahə; 25.Müəyyən bir sahədə üstünlük təşkil edən tapşırıq.



*Rəqəmsal kamera, kameralı mobil telefon və ya planşet ilə çəkilən avto-portret növü*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sakura; 2.İsmayıl *(Əfəndiyev)*; 3.Spred; 4.Neolit; 5.Qacar; 6.Qurban *(Qurbanov)*; 9.Epir; 13.Emin *(Sabitoğlu)*; 15.Natəvan; 16.Tambur; 17.Mağara; 18.Boyler; 20.Ağçay; 21.Penni. **Soldan sağa:** 1.Smitsonit; 5.Qoq *(Vinsent Van Qoq)*; 7.Kamerton; 8.Acar; 10.Riyad; 11.İsparta; 12.Alkey; 14.Tranş; 19.Amaliya *(Pənahova)*; 21.Patio; 22.Biça; 23.Karnaval; 24.Rey; 25.Stasionar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
*anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu
*redaksiya@vergiler.az*

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
**Tiraj: 14000**

## idman

# Sloveniyada «Synergy Baku»nun təqdimat mərasimi keçirilib




***Fevralın 24-də Sloveniyanın paytaxtı Lyublyananın rəmzi sayılan şəhər qalasında Azərbaycanın ilk peşəkar kontinental velosiped komandasının - «Synergy Baku Cycling Project»in 2015-ci il heyətinin təqdimat mərasimi keçirilib. Tədbirdə Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) vitse-prezidenti Sahib Ələkbərov və baş katib Fərhad Əliyev, Azərbaycanın Avstriya, Slovakiya və Sloveniyadakı səfiri Qalib İsrafilov, Sloveniya Milli Şurasının sədri Mitya Bervar, Sloveniya Milli Olimpiya Komitəsinin və İdman Nazirliyinin rəsmiləri iştirak ediblər.***




Təqdimat mərasimi «Bakı-2015» ilk Avropa Oyunlarına həsr olunmuş videoçarxın nümayişi ilə başlayıb. Azərbaycanın dünya idmanında özünəməxsus yer tutduğunu deyən AVİF-in vitse-prezidenti Sahib Ələkbərov ölkəmizin «Bakı-2015»ə səylə hazırlaşdığını deyib və Sloveniya idman ictimaiyyətini bu yarışları seyr etməyə çağırıb. Vitse-prezident təqdimat mərasimi üçün Sloveniyanın seçilməsinin səbəbsiz olmadığını deyib. Bildirilib ki, Beynəlxalq Velosipedçilər İttifaqının reqlamentinə əsasən, Yay Olimpiya Oyunlarından öncəki il də daxil olmaq şərtilə, velosipedçilər iştirak etdikləri beynəlxalq yarışlarda dördilliyin zirvə yarışına lisenziya xalları toplayacaqlar. «Synergy Baku»nu isə cari ildə Avropanın müxtəlif ölkələrində təşkil olunacaq bir sıra yarışlar gözləyir və bu səbəbdən də komandamız hazırlıq üçün lazım olan infrastruktur baxımından, həmçinin coğrafi nöqteyi-nəzərdən seçimini Sloveniyanın üzərində saxlayıb.

Sloveniya Milli Şurasının (parlamentinin) sədri Mitya Bervar ölkələrimiz arasındakı dostluq münasibətlərindən söhbət açaraq bu cür tədbirlərin münasibətləri daha da möhkəmləndirdiyini deyib. O, Azərbaycan xalqının qəhrəman oğlu, Sloveniyanın faşizm zülmündən azad olunmasında həyatını qurban verən Mehdi Hüseynzadənin xatirəsinin ölkəsində hər zaman əziz tutulduğunu vurğulayıb.

Komandanın baş sponsoru «Synergy Group» ASC-nin İdarə Heyəti sədrinin birinci müavini Fəxriyar Cabbarov təmsil etdiyi qurumun Azərbaycan idmanına verdiyi töhfədən danışaraq kollektivin uğurlu çıxışı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini deyib.

Sonra «Synergy Baku»nun üzvləri səhnəyə dəvət olunublar. Geyimlərinin üzərində «Bakı-2015» ilk Avropa Oyunlarının loqosu olan velosipedçilər «Synergy Baku»nun uğurlu çıxışı üçün onlara yaradılan yüksək şəraitə görə federasiya və klub rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, komanda üzvlərinin bu ilin yayında keçiriləcək ilk Avropa Oyunlarında uğurlu çıxışı və «Rio-2016» Yay Olimpiya Oyunlarına lisenziya qazanması klubun əsas hədəflərindəndir.

Həmin gün Sloveniya Milli Şurasının sədri Mitya Bervar Azərbaycandan gəlmiş qonaqları qəbul edib. Qonaqları salamlayan sədr ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha möhkəmlənməsi üçün bu cür tədbirlərinin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. AVİF-in vitse-prezidenti Sahib Ələkbərov təqdimat mərasiminin təşkilində göstərdiyi dəstəyə görə cənab Bervara minnətdarlığını bildirib. O, ölkəmizdə idmana göstərilən dövləq qayğısından söhbət açaraq tarixdə ilk dəfə Bakıda keçiriləcək ilk Avropa Oyunlarına hazırlıq işlərinin başa çatmaq üzrə olduğunu deyib və Sloveniya Milli Şurasnın sədrini, həmçinin görüşdə iştirak edən Sloveniya Milli Olimpiya Komitəsinin direktorunu oyunları izləmək üçün Bakıya dəvət edib.

Azərbaycan Respublikasının Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Qalib İsrafilov Azərbaycan və Sloveniya arasındakı əlaqələrin daha da möhkəmlənməsində bu kimi tədbirlərin mühüm rol oynadığını vurğulayıb və tədbirin Xocalı faciəsinin 23-cü ildönümü ərəfəsində keçirildiyini qeyd edərək, bununla bağlı Sloveniyada keçirilən anım tədbirlərinə xüsusi dəstək verən parlament rəhbərliyinə təşəkkürünü bildirib.

Növbəti gün Sloveniya Universitetinin idman institutunun ən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyasında «Synergy Baku» komandasının üzvləri kompleks tibbi müayinədən keçirilib. İnstitutun direktoru Yaneç Vodiçarla görüşdə Azərbaycan Velosiped İdmanı Federasiyası, habelə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin reabilitasiya mərkəzinin əlaqələrinin möhkəmləndirilməsi istiqamətində müzakirələr aparılıb.

***YERİ GƏLMİŞKƏN:***

*Azərbaycanın kontinental velosiped komandası - «Synergy Baku» Xorvatiyada Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 1.2 kateqoriyalı birgünlük «İzola» Qran-pri yarışında «Rio-2016» Yay Olimpiya Oyunlarına ilk lisenziya xallarını qazanıb.*

*Yarışda 8 velosipedçi ilə təmsil olunan komandamızın üzvlərindən ən yüksək nəticəni Maksim Averin göstərib. İdmançımız 160,3 kilometrlik marşrutu qalibdən 1 dəqiqə 14 saniyə sonra başa vurmaqla 5-ci yeri tutub və aktivinə 10 reytinq xalı yazdırıb. M.Averin, həmçinin, sprinterlərin mübarizəsində ikinci nəticə göstərib.*

*Beynəlxalq Velosipedçilər İttifaqının reqlamentinə əsasən, Yay Olimpiya Oyunlarından öncəki il də daxil olmaq şərtilə, velosipedçilər təmsil etdikləri qitənin beynəlxalq yarışlarında mübarizə aparmaqla Olimpiadaya lisenziya xalları toplayırlar.*

## mozaika

### Uşaqları qorumaq məqsədilə...

texnologiya



Azərbaycan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bildirilib ki, uşaqların internetlə insan alverinə, narkomaniyaya cəlb edilməsinin qarşısını almaq, onların beyninin sağlamlığının müdafiəsini təmin etmək üçün xüsusi proqram təminatının hazırlanmasına başlanılıb. Artıq proqram təminatının nəzəriyyəsi, strukturu hazırdır. Proqram təminatının texniki komponentlərinin təkmilləşdirilməsi işləri bu il ərzində aparılacaq.

Komitədən bildirilib ki, uşaqların bütün sahələrdə internet vasitəsi ilə aldadılmasına, onlardan sui-istifadə edilməsi hallarına son qoyulmalıdır. Buna görə də proqram hazırlanarkən bütün əmsallar - insan alveri ilə mübarizə, uşaqların internet vasitəsilə narkomaniyaya cəlb edilməsinin qarşısının alınması nəzərə alınıb. Proqram təminatı uşaqların beyninin sağlamlığını müdafiə etmək üçün pornoqrafik sözlərdən istifadənin də qarşısını alacaq. Bu proqram təminatı həm də uşaqların intihar hallarının qarşısını almağa yönələn tədbirlərdəndir. Proqram təminatı, eyni zamanda, yalnız aldadılma deyil, uydurma, tamahkarlıq məqsədi ilə uşaqlardan istifadə etmə ilə bağlı həyata keçirilən qanunsuz tədbirlərin də qarşısının alınmasına kömək edəcək.

Qeyd olunub ki, valideynlər bu proqramları kömpüterlərinə pulsuz yazdıra və istifadə edə biləcəklər: «Bunlar olduqdan sonra uşaqlar kompütərə öz «açarları» ilə daxil olacaqlar. Bunun da əsasında saytlarda, forumlarda hər hansı danışıqlar aparıldıqda, yaxud sorğu verildikdə buna nəzarət ediləcək. Xüsusi komponentləri əhatə edən sözlər aşkarlandıqda bu barədə mərkəzi bazaya siqnal veriləcək, sorğu da, danışıqlar da dayandırılacaq».

Komitədən əlavə edilib ki, proqram təminatının getdikcə daha da təkmilləşdirilməsi və əhalinin digər qruplarının ondan istifadəsinə şərait yaratmaq planlaşdırılır: «Büdcə təminatı istənilən səviyyədə olsa, əhalinin bütün təbəqələri internet vasitəsilə ondan istifadə edə bilərlər. Amma bugünkü reallıq nəzərə alındığından proqram ilkin formada yalnız uşaqlar üçün nəzərdə tutulur».

Bütün bu məsələlərə nəzarət etmək üçün ayrıca struktur yaradılmalıdır. Bunun üçün də komitə bu sahədə xüsusi şöbənin yaradılmasını təklif edir: «Çünki buna nəzarət edən əməkdaşlar olmalıdır. Bunun üçün də bir sektor, yaxud şöbə yaradılmalıdır, eyni zamanda maliyyənin ayrılması vacibdir».

### Təhlükəli qidalar ölüm yayır

sağlam həyat tərzi

Dünyada hər il təxminən 2 milyon adamın, xüsusilə uşaqların ölümü təhlükəli qidalarla bağlıdır. Ərzaq məhsullarının tərkibində olan patogen bakteriya, virus, parazit və ya kimyəvi maddələr ishaldan tutmuş xərçəngə qədər 200-dən çox xəstəliyə səbəb olur.

Qida məhsulları üçün daim yeni təhlükələr var. Ərzaq məhsullarının istehsal texnologiyasında, bölüşdürülməsi və istehlakı, eləcə də ətraf mühitdə baş verən dəyişikliklər, mikroblara müqavimət - bütün bu amillər hər bir ölkənin milli qida təhlükəsizliyi sistemi üçün problemlər yaradır. Bununla yanaşı, beynəlxalq ticarət əlaqələrinin genişlənməsi təhlükəli məhsulların yayılması ehtimalını artırır.




Məhz buna görə 2015-ci ildə Ümumdünya Səhiyyə Gününün mövzusu «Ərzaq məhsullarının təhlükəsizliyi» olacaq. Dünya Səhiyyə Təşkilatı bildirir ki, istifadə etdiyimiz qida məhsullarının təchizatı mənbələri getdikcə qloballaşdığından, bütün ölkələrdə ərzaq təhlükəsizliyi sistemlərini gücləndirmək lazımdır. Bu səbəbdən, Dünya Səhiyyə Təşkilatı qida təhlükəsizliyinin möhkəmləndirilməsinə, o cümlədən qida ilə ötürülən xəstəliklərin yayılmasının qarşısını almağa çalışır. Eyni zamanda, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı da beynəlxalq informasiya şəbəkəsi vasitəsilə ərzaq təhlükəsizliyi sahəsində fövqəladə hadisələr haqqında bütün ölkələri xəbərdar edir.

Qida təhlükəsizliyi - ortaq bir məsuliyyətdir. Ərzaq istehsalı zəncirində hamı təhlükəsizlik qaydalarını gözləməlidir. Bu qaydalara fermerlər və istehsalçılar, eləcə də satıcılar və istehlakçılar ciddi əməl etməlidirlər.

Builki Ümumdünya Sağlamlıq Gününün məqsədi dövlət sektorlarında çalışanların, fermerlərin, satıcıların, səhiyyə işçilərinin diqqətini ərzaq təhlükəsizliyinin əhəmiyyətinə yönəltməkdir.

### Onlayn məkana doğru

maraqlı

*Dünya maliyyə böhranı başlanandan sonra Avropanın böyük ölkələrində bank filiallarının sayı daim azalmağa doğru gedir. Maliyyə institutları bölmələrin saxlanılması üçün xərcləri azaltmaq və əsas bank xidmətlərini onlayn məkana keçirmək məcburiyyəti ilə üzləşir.*

Filiallar üçün xərclərin azaldılması qeyri-bərabər aparılır. Avropa İttifaqında ənənəvi bank ofislərinin çox olduğu ölkələr hələ də var. Bu barədə SNL Financial tədqiqat şirkətinin hesabatında deyilir.

İspaniya bank şöbələrinin inkişafı üzrə Avropa ölkələri arasında liderdir. 2013-cü ilin sonuna olan vəziyyətə görə, ölkədə 10 min sakinə yeddidən çox (7,18) şöbə düşüb, halbuki 2012-ci ilin sonunda bu göstərici səkkizi (8,16) ötüb.

Fransa, Almaniya və İtaliyada da ənənəvi bankçılığın azalması müşahidə olunur. Belə ki, 2012-ci ilin sonunda 10 min sakinə müvafiq olaraq 6,00, 5,40 və 4,50 bank şöbəsi düşüb, 2013-cü ilin sonunda 5,89, 5,21 və 4,47 filial qalıb.

Böyük Britaniya əvvəlcədən digər Avropa ölkələrindən bank şöbələrinin sayına görə geri qalıb. 2012-ci ildə 10 min sakinə 1,8 ofis qeydə alınıb. Bundan əlavə, nisbətən aşağı göstəriciyə baxmayaraq, ölkənin iri bankları filialların sayını azaldır. Məsələn, Lloyds Banking Group 2017-ciilədək 150 ənənəvi bank xidmətini bağlamağı planlaşdırır. Bank rəhbərliyi rəqəmli platformaların yaradılmasına vəsait yatırmaq niyyətindədir. İlkin məlumatlara görə, onlayn bankçılığın ənənəvi maliyyə əməliyyatlarında payı 50-70% təşkil edəcək.

Şotlandiya Kral Bankı da filial şəbəkəsində ciddi struktur dəyişiklikləri aparır. 2015-ci ildə 99 ofisin fəaliyyətini dayandırmaq nəzərdə tutulur.

### Ən düzgün qida rasionu olan ölkələr

araşdırma

*«The Lancet Global health journal» jurnalında dərc edilmiş tədqiqat 197 ölkəni əhatə edib.*

Alimlər 4,5 milyard insan arasında sorğu apararaq, dünyanın müxtəlif yerlərində insanların necə süfrə açdıqlarını öyrəniblər. Onların tərtib etdiyi cədvəldə düzgün pəhriz saxlayan ölkələr göstərilib. Bu ölkələrin sakinlərinin rasionuna 17 əsas məhsul daxildir. Bundan əlavə, tədqiqatda qeyri-sağlam qidalanmanın əmələ gətirdiyi şəkərli diabet, piylənmə, insult, ürək xəstəlikləri göstərilib.

Ən zərərli qidanı Ermənistan, Macarıstan, Belçika, Çexiya, Qazaxıstan, Belarus və Argentina sakinləri qəbul edirlər.

ABŞ, Kanada, Qərbi Avropa və Yeni Zelandiyanın əhalisi kimi ən sağlam xalqlar isə yaxşı rasionu ilə öyünə bilməyiblər, çünki bu ölkələrdə sağlam olmayan qida çox populyardır. Belçika və Macarıstan sakinlərinin çox hissəsi yarımfabrikatlar ilə dolandıqları halda, Çad və Syerra-Leon sakinləri, əsasən, meyvə-tərəvəz, qoz-fındıq və digər faydalı ərzaqlara üstünlük verirlər.

Alimlər müəyyən ediblər ki, yaşlı insanlar və qadınlar öz yeməyinə daha çox fikir verir, sağlam pəhriz saxlayırlar.

Tədqiqat göstərib ki, dünyanın hər yerində meyvə və tərəvəzdən istifadə artıb, lakin bu artım böyük miqdarda ziyanlı fastfudu kompensasiya edə bilmir.

**Müdriklər deyib ki...**



***«İnsan kainatda gövdəsi qədər deyil, ürəyi qədər yer tutur...»***

***Yaşar Kemal (1923-2015)***